# Rasim Əliyevin Üstü Açılmamış Qətli

## Jurnalist Rasim Əliyevin qətli ilə bağlı müstəqil araşdırma



**Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu (RATİ)**

Avqust, 2016

IRFS

www.irfs.org

**MÜNDƏRİCAT**

MİNNƏTDARLIQ........................................................................................................................................3

RASİM ƏLİYEVİN XATİRƏSİNƏ.....................................................................................................................4

İŞİN QISA TƏSVİRİ..........................................................................................................................................6

HADİSƏNİN İŞTİRAKÇILARI............................................................................................................................7

GİRİŞ...............................................................................................................................................................10

JURNALİSTLƏRƏ QARŞI ZORAKILIĞIN CƏZASIZ QALMASI.............................................................................12

QƏTL...............................................................................................................................................................14

RASİM ƏLİYEVƏ 1 SAYLI ŞƏHƏR KLİNİK XƏSTƏXANASINDA GÖSTƏRİLƏN YARDIM VƏ MÜALİCƏ İLƏ BAĞLI MÜSTƏQİL ARAŞDIRMA...........................................................................................................................17

REAKSİYALAR.................................................................................................................................................19

HÜQUQ POZUNTULARI...................................................................................................................................21

MEYDANA ÇIXAN MƏSƏLƏLƏR, ŞƏRHLƏR VƏ TƏHLİLLƏR .............................................................................23

NƏTİCƏ............................................................................................................................................................29

# MİNNƏTDARLIQ

Bu hesabat Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun (RATİ) nəşridir. Hesabat adlarının anonim qalmasını istəyən bir qrup müstəqil ekspertin müştərək səyinin nəticəsində ərsəyə gəlib.

Hesabat iki hüquqşünas, bir informasiya texnologiyaları mütəxəssisi və üç insan hüquqları və media ekspertindən (yerli və beynəlxalq) ibarət olan ekspert qrupunun apardığı araşdırma və təhlil əsasında hazırlanıb. Onların 2015-16-cı illərdə həyata keçirdiyi iş aşağıdakı səhifələrdə təqdim olunan məlumatların əsasını təşkil edir.

Bu hesabat hazırlanarkən, RATİ digər məsələlərlə yanaşı iş materiallarını, ekspert rəylərini, ittiham aktını, məhkəmə ifadələrini, hadisə yerindən video görüntüləri, müsahibələri və mediada gedən xəbərləri, eləcə də yerli və beynəlxalq qanunvericiliyi təhlil edib və onlara istinad edib.

Ekspert qrupu hadisə yerinə baxış keçirib, Rasim Əliyevin ailəsindən, məhkəmə işini aparan iki vəkildən və yeddi müstəqil hüquqşünas və ekspertdən müsahibə alıb. Bundan başqa, iki müstəqil həkimin də rəyi öyrənilib.

Hesabatda həmçinin RATİ-nin ifadə, toplaşma və birləşmə azadlıqları sahəsindəki əvvəlki araşdırmasının bilgilərindən istifadə olunub.

# RASİM ƏLİYEVİN XATİRƏSİNƏ




***Jurnalist və hüquq müdafiəçisi Rasim Əliyev. 10 mart 2013-cü il, Foto: Fərqanə Novruzova © RATİ***

“O, səssiz qəhrəman, hər zaman hazır olan insanlardan biri idi. Bütün bu olaylar RATİ-nin başına gələndə, o, onlar üçün çalışmağa davam etdi. O, təvazökar, dürüst və olduqca cəsur idi” deyə Meydan TV-nin direktoru Emin Milli bildirib.

Rasim Əliyev jurnalist, hüquq müdafiəçisi və Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun (RATİ) sədri idi.

Rasim Əliyev 1984-cü il avqustun 16-da anadan olmuş və 31 yaşının tamam olmasına az bir vaxt qalmış vəfat etmişdir. Öz yaşlı valideynləri ilə birlikdə yaşayan Rasim Əliyev ailə qurmaq üçün nişanlanmışdı və toy etməyi planlaşdırırdı. Valideynləri və nişanlısından başqa, Rasim Əliyevin bir bacısı da var.

Tez-tez öz video reportajları ilə hüquq pozuntularını ifşa edən açıq sözlü reportyor Rasim Əliyev Azərbaycanın vətəndaş cəmiyyəti və media icması daxilində yaxşı tanınırdı və onun ölümü onu tanıyan və onunla uzun illər birlikdə çalışan insanlar üçün ağır zərbə oldu.

Rasim Əliyev 2006-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirib. Universitetdə ona neft-qaz sektorunda yaxşı karyera qurmaq imkanı verə biləcək neft mühəndisliyi ixtisasına yiyələnsə də, Rasim qeyri-kommersiya sektorunda çalışmaq və ifadə azadlığının müdafiəsinə töhfə vermək qərarına gəlib. Beləliklə, o, 2006-ci ilin avqustunda Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutuna könüllü olaraq

qoşulub və qısa bir müddətdə RATİ-nin İdarə Heyətinin üzvünə çevrilib (2008-ci ildən 2014-cü llədək). Rasim Əliyev RATİ-də fəaliyyət göstərdiyi dövrdə məhkəmə müşahidəçisi, media kontentinin monitorinqi və təhlili üzrə ekspert, RATİ-nin Obyektiv TV layihəsində jurnalist və daha sonra isə redaktor vəzifəsində çalışıb.

Bu əməli törədən şəxslər az qala heç vaxt etdiyinin nəticəsini görməyəcək. Lakin cəzasızlıq məsələlərinin mediada geniş işıqlandırılması bunu dəyişdirməyə kömək edə bilər və Rasim də RATİ-nin Azərbaycanda cəzasızlıqla mübarizə cəhdlərinin bir hissəsi idi. 2012-14-cü illərdə, Rasim Əliyev RATİ-nin jurnalistlərə və KİV əməkdaşlarına qarşı qətl və hücumların alternativ araşdırmasını həyata keçirən tədqiqat qrupunun üzvü olub.

RATİ ilə əməkdaşlığı dövründə Rasim bir çox yüksək profilli məhkəmələri, o cümlədən belarusiyalı hüquq müdafiəçisi Ales Bialiatskinin və Azərbaycanlı bloggerlər Emin Milli və Adnan Hacızadənin məhkəmələrini müşahidə edib.

2013-cü il prezident seçkiləri zamanı Rasim seçicinin qorxudulması, bir dəfədən çox səs vermə, topa bülleten atma və digər ciddi pozuntuları qeydə almaq üçün Azərbaycan boyunca bir səsvermə məntəqəsindən digərinə gedib.

2014-cü il oktyabrın 13-də Rasim Əliyev RATİ-nin Ümumi Yığıncağının qərarı ilə RATİ-nin sədri seçilib və bu vəzifədə əvvəlki sədr Emin Hüseynovu əvəzləyib.

RATİ-nin 2006-cı ildə təsis olunmasından bəri, onun əməkdaşları və müqaviləçiləri böyük təzyiqlərə məruz qalıblar. 2014-cü ilin avqustunda təşkilatın qanunsuz olaraq bağlanması və təşkilatın təsisçisi Emin Hüseynovun təqibə məruz qalması bu təzyiqlərin kulminasiya nöqtəsi olub. Rasim Əliyev qarşı 2015-ci ilin 8 avqustunda baş vermiş hücum hakimiyyətin RATİ-nin ofisinə reydi, RATİ və onun tele-layihəsi olan Obyektiv TV-nin ofislərinin bağlanması və fəaliyyətini dayandırmağa məcbur olmasından bir il sonraya təsadüf edir.

Eyni gündə, yəni 2014-cü il avqustun 8-də, RATİ direktoru Emin Hüseynov gizlənmək məcburiyyətində qalmış və az müddət sonra İsveçrənin Bakıdakı səfirliyində ona sığınacaq verilmişdi. Hüseynov orada 10 ay qaldıqdan sonra ona ölkədən çıxmağa icazə verildi, lakin eyni zamanda o, Azərbaycan vətəndaşlığından da məhrum edildi.

Hüquq mühafizə orqanları 2014-cü ilin avqustunda RATİ-nin ofisinə reyd edərkən Emin Hüseynovu oranın yaxınlığından müvəqqəti təhlükəsiz bir yerə öz avtomobili ilə aparan Rasim Əliyev olub.

2014-cü ilin oktyabrında Rasim Əliyev RATİ sədri seçilərək Hüseynovu bu vəzifədə əvəzlədi. Bu seçkinin protokolu Azərbaycanın Ədliyyə Nazirliyinə göndərildi. Təşkilatın ən ağır dönəmində, hakimiyyətin şiddətli təzyiqi nəticəsində faktiki olaraq iflic duruma düşdüyü bir vaxtda RATİ-yə rəhbərliyi Rasim Əliyev öz üzərinə götürdü.

Ölümündən öncəki üç həftə ərzində Rasim Əliyev ona sosial şəbəkədə davamlı olaraq təhdid və hədə-qorxular gəldiyini bildirirdi.

Rasim Əliyev fəaliyyət göstərdiyi müddət ərzində dəfələrlə polis və xüsusi xidmət işçilərinin fiziki təzyiqinə və mənəvi basqılarına məruz qalsa da insan hüquqlarının müdafiəsindən kənara çəkilmədi və həyatının son anına qədər ifadə azadlığının müdafiəsində durdu.

# İŞİN QISA TƏSVİRİ

Rasim Əliyev 2015-ci il avqustun 8-də amansızcasına döyülərək bir gün sonra, avqustun 9-da Bakıdakı xəstəxanalardan birində dünyasını dəyişib. Bakıda fəaliyyət göstərən 30 yaşlı reportyor Rasim Əliyev azərbaycanlı futbolçu Cavid Hüseynovu xarici jurnalistə qarşı pis rəftarına görə tənqid etdikdən sonra ona özünü futbolçunun qohumları kimi təqdim edən şəxslərdən telefon zəngləri gəlib. Nəhayət, o, Bakının gediş-gəlişli və məskunlaşmış bir ərazisində təhlükəsiz kimi görünən bir yerdə görüşməyə razılıq verib, lakin, elə həmin yerdə bir qrup şəxs tərəfindən amansızcasına döyülüb.

İlk anda xəsarətlər ağır görünmürdü. Hücumdan bir neçə saat sonra, Rasim Əliyev Bakı Şəhər Klinik Xəstəxanasındakı çarpayısında aydın və acıqlı bir səslə danışırdı. Lakin sonradan onun vəziyyəti qəflətən pisləşdi və o, cəmi bir neçə saat sonra elə həmin xəstəxanada da vəfat etdi.

Azərbaycan məhkəməsi jurnalistin döyülməsində iştirak etmiş beş şəxsə uzun müddətli həbs cəzaları versə də, bu hesabatdan da göründüyü kimi, bu iş hələ tam həllini tapmayıb.

Əliyevin qətli Azərbaycanda media ictimaiyyəti arasında onsuz da geniş yayılmış qorxu atmosferini daha da gücləndirməyə xidmət edir. Futbolçunu tənqid etməzdən əvvəl, Əliyev öz Facebook səhifəsinə polis zorakılığını ifşa edən silsilə fotoşəkillər yerləşdirdikdən sonra ona təhdidlərin gəldiyi barədə məlumat vermişdi. Əliyev uzun illər RATİ-də fəaliyyət göstərmişdi. Hakim rejimin təşkilatın bank hesablarını dondurmasından və onun sədri və direktoru olan, sonradan İsveçrə səfirliyindən sığınacaq alan və daha sonra xaricə mühacirət etməyə məcbur olan Emin Hüseynovu təqib etməsindən sonra Rasim təşkilatın sədri oldu. Hüquq mühafizə orqanları RATİ-nin ofisində reyd edərkən Emin Hüseynovu öz avtomobili ilə oranın yaxınlığından müvəqqəti təhlükəsiz bir yerə aparmış şəxs RATİ-nin ən güvənli və sadiq əməkdaşların biri olan Rasim Əliyev idi.

Elə Rasim Əliyevə qarşı hücum da hakimiyyətin RATİ-nin Bakıdakı ofisinə reyd etməsi və onu bağlamasının bir ilinin tamamında baş verdi.

İnternetə yüklədiyi polis zorakılığı, sosial narazılıq, məsələn "İstefa" sözü yazılmış baner daşıyan etirazçıların şəkilləri ilə əlaqədar ona təhdid mesajları gəlirdi. Rasim Əliyev ona "bu fotolara görə cəzalanacaqsan" mətnində təhdidin gəldiyini bildirirdi. O, 2015-ci il iyulun 25-də bu təhdidi ictimailəşdirdi və bununla bağlı polisə şikayət etdi, lakin polis Rasim Əliyevi qorumaq üçün heç bir addım atmadı.

RATİ-nin araşdırması ilə müəyyən olunub ki, 1 saylı Şəhər Klinik Xəstəxanasının tibbi personalı Rasim Əliyevə lazımi tibbi yardımı göstərməyib. Bundan başqa, Rasim Əliyevin ailəsi məhkəmənin onun xəstəxanada hansı şəraitdə ölməsini araşdırmamasından məyusluqlarını ifadə edərək Rasimin ölümünə görə cavabdeh olan hər kəsin məsuliyyətə cəlb olunması üçün səylərini davam etdirəcəklərini əhd ediblər.

# HADİSƏNİN İŞTİRAKÇILARI




**Cavid Hüseynov, futbolçu, Azərbaycan millisinin və Qəbələ Futbol Klubunun (FK) hücumçusu.**

**Rolu: Cinayətə yardımçı: təşviq etmə və gizli saxlama yolu ilə cinayət əməlinin törədilməsinə köməklik göstərib. Dörd il həbs cəzasına məhkum olunub.**

2015-ci il avqustun 7-də jurnalist Rasim Əliyev Facebook-səhifəsində bildirib ki, Qəbələ FK-nın 28 yaşlı hücumçusu Cavid Hüseynov kiprli jurnalistə kobud jest göstərdiyi üçün futboldan uzaqlaşdırılmalıdır. Bundan sonra, Rasim futbolçunun qohum və dostları olduqlarını iddia edən və onu aldadıb görüşə çağıran bir qrup şəxs tərəfindən döyülüb. Rasim daha sonra Bakıdakı xəstəxanalardan birində dünyasını dəyişib.

Cavid Hüseynov 2015-ci il avqustun 11-də həbs olunub. İstintaq müəyyən edib ki, Cavid Hüseynov bibisi oğlu Elşən İsmayılovun hücumu planlaşdırdığını bildiyi halda hadisənin baş verməsinin qarşısını alacaq hər hansı addım atmayıb.

Səbail Rayon Məhkəməsinin 31 may 2016-cı il tarixli hökmü ilə Cavid Hüseynov Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrinə əsasən 4 il müddətinə azadlıqdan məhrum edilib.

**Əsas cinayətkarlar: Cinayət əməlinin həyata keçirilməsinə görə məsuliyyət daşıyan şəxslər**

**Elşən İsmayılov**

**Rolu: Cinayəti törədən, 13 il müddətinə azadlıqdan məhrum olunub.**



**Elşən İsmayılov**, İdman Akademiyasının Futbol fakültəsinin 22 yaşlı məzunu. Bir neçə ildir peşəkar futbolla məşğul olur. İsmayılov Qəbələ FK-nın hücumçusu Cavid Hüseynovun bibisi oğludur.

O, 2015-ci il avqustun 9-da Rasim Əliyevi döymək ittihamı ilə həbs olunub. İstintaq müəyyən edib ki, İsmayılov "qabaqcadan əlbir olan dəstə təşkil edərək Rasim Əliyevin səhhətinə xüsusi amansızlıqla, ehtiyatsızlıqdan sonuncunun ölümü ilə nəticələnən ağır xəsarət yetirib." Elşən İsmayılov Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən bədənə ağır xəsarət yetirmə ölümə səbəb olduqda) maddəsilə və hadisə yerindən Rasim Əliyevin pul kisəsini də götürdüyünə görə əlavə olaraq, CM-nin 177-ci (oğurluq) maddəsi ilə ittiham edilib.

Məhkəmə prosesi zamanı etdiyi əməldən peşman olmadığını və Rasim Əliyevi "düz edib öldürdüyünü" qeyd edib. İstintaqa verdiyi ifadəsində törətdiyi cinayəti etiraf edib. Məhkəmə zamanı Rasim Əliyevi döyməkdə təqsirli olduğunu boynuna alıb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 01 aprel 2016-cı il tarixli hökmünə əsasən oğurluq və ölümə səbəb olan qəsdən ağır bədən xəsarəti yetirmə ittihamları ilə 13 il müddətinə azadlıqdan məhrum edilib.

**Camal Məmmədov**

**Rolu: Cinayəti törədən, 11 il müddətinə azadlıqdan məhrum olunub.**

Qaradağ-Lökbatan FK-nın 21 yaşlı futbolçusu **Camal Məmmədov** Elşən İsmayılovun dostu olub. O, 2015-ci il avqustun 9-da cinayətkar dəstənin üzvü olaraq həbs olunub. Məmmədov məhkəmədə verdiyi ifadədə özünü təqsirli bilərək etdiyi əməldən peşman olduğunu bildirib. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin 01 aprel 2016-cı il tarixli hökmünə əsasən Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən bədənə ağır xəsarət yetirmə ölümə səbəb olduqda) maddəsilə təqsirli bilinərək 11 il müddətinə azadlıqdan məhrum edilib.

**Arif Əliyev**

**Rolu: Cinayəti törədən, 12 il 6 ay müddətinə azadlıqdan məhrum olunub.**

20 yaşlı Arif Əliyev 2015-ci il avqustun 9-da Rasim Əliyevin amansızcasına döyülməsində iştirakına görə həbs olunub. O, Elşən İsmayılovun dostu olub. O, ifadəsində bildirib ki, Elşənin istəyi üzrə Rasim Əliyevlə görüş yerinə gedib və Rasimin döyülməsində iştirak edib. İstintaq orqanı Arif Əliyevə ittiham elan edib. Əliyev Bakı Ağır Cinayətlər Məhkəməsinin 01 aprel 2016-cı il tarixli hökmü ilə Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən bədənə ağır xəsarət yetirmə ölümə səbəb olduqda) və 177-ci (oğurluq) maddələri üzrə təqsirli bilinərək 12 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

**Samir Mustafayev**

**Rolu: Cinayəti törədən, 9 il müddətinə azadlıqdan məhrum olunub.**

26 yaşlı Samir Mustafayev 2015-ci il avqustun 9-da Rasim Əliyevin döyülməsi cinayətini törətmiş qrupun bir üzvü kimi həbs olunub. O, Elşən İsmayılovun qohumlarından birinin dostu olub. O, hadisə yerinə Elşən İsmayılovun qohumu Pərviz Qabulzadənin xahişi üzrə gəlib. İstintaq orqanı Samir Mustafayevə Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən bədənə ağır xəsarət yetirmə ölümə səbəb olduqda) maddəsi ilə ittiham irəli sürüb. Mustafayev Bakı Ağır Cinayətlər Məhkəməsinin 01 aprel 2016-cı il tarixli hökmü ilə 9 il müddətinə azadlıqdan məhrum edilib.

**Kənan Mədətov, Elşən İsmayılovun dostu, 21 yaşı var**

**Rolu: Cinayəti törədən, 9 il müddətinə azadlıqdan məhrum olunub.**

21 yaşlı Kənan Mədətov Elşən İsmayılovun dostu olub. Mədətov 2015-ci il avqustun 9-da Rasim Əliyevin döyülməsində Elşənə qoşulduğuna görə həbs olunub. İstintaq müəyyən edib ki, dəstənin Rasim Əliyevlə görüş yerinə çatdırılmasında Kənan Mədətovun avtomobilindən istifadə olunub. Mədətov da Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən bədənə ağır xəsarət yetirmə ölümə səbəb olduqda) maddəsi ilə ittiham edilib. O, istintaq zamanı əməlini etiraf etsə də, məhkəmədə günahı olmadığını bildirib. Mədətov Bakı Ağır Cinayətlər Məhkəməsinin 01 aprel 2016-cı il tarixli hökmü ilə 9 il müddətinə azadlıqdan məhrum edilib.

## Tibbi personal

RATİ-nin apardığı araşdırma müəyyən edib ki, 1 saylı Şəhər Klinik Xəstəxanasının tibbi personalı Rasim Əliyevə lazımi tibbi yardımı göstərməyib. Bundan başqa, Rasim Əliyevin ailəsi məhkəmənin onun xəstəxanada hansı şəraitdə ölməsini araşdırmamasından məyusluqlarını ifadə edərək Rasimin ölümünə görə cavabdeh olan hər kəsin məsuliyyətə cəlb olunması üçün səylərini davam etdirəcəklərini əhd ediblər.

**Həkim Saday Əliyev, cərrah, reanimasiya, 1 saylı Şəhər Klinik Xəstəxanası**

Həkim Saday Əliyev Azərbaycan Tibb Universitetinin Cərrahiyyə kafedrasının professorudur və 1 saylı Şəhər Klinik Xəstəxanasında cərrahiyyə əməliyyatları həyata keçirir. O, öz ifadəsində Rasim Əliyevi əməliyyat etdiyini bildirib. Rasim Əliyevin ölümündən sonra mediaya verdiyi ilk müsahibədə Rasim Əliyevi 8 avqust 2015-ci il tarixində saat 20.05-də əməliyyat etdiyini bildirmişdi. Lakin, qeyd olunan vaxtda Rasim Əliyevin yanında dostları olub və o, mediaya müsahibə verib (məs. Meydan TV ilə müsahibə saat 21.00 radələrində olub). Müsahibə zamanı Rasim bildirib ki, o yalnız müayinə olunub və heç bir əməliyyat edilməyib. Müsahibə alınarkən o, adi palatada idi və sadəcə qoluna sistem qoşulmuşdu. Müstəntiqlər tərəfindən dindirilmə zamanı Saday Əliyev bildirib ki, əməliyyat vaxtında və peşəkarcasına icra olunub. O deyib ki, Rasimə bütün lazımi tibbi yardım göstərilib.

**Həkim Babək Zeynalov, cərrah, Cərrahiyyə Şöbəsi, 1 saylı Şəhər Klinik Xəstəxanası**

Həkim Zeynalov 1 saylı Şəhər Klinik Xəstəxanasının Cərrahiyyə Şöbəsində əməliyyatlar həyata keçirir və həmçinin Azərbaycan Tibb Universitetinin Cərrahiyyə Kafedrasının dosentidir. Rasim Əliyevi 1 saylı Şəhər Klinik Xəstəxanasına daxil olarkən qəbul edən həkim olub. O, istintaq orqanındakı ifadəsində də təsdiq edib ki, Rasimi xəstəxanaya məhz o qəbul edib. Həmin vaxt orada olan tibbi personalın qalan hissəsi də bunu təsdiqləyiblər.

# GİRİŞ

Bu hesabat Azərbaycanda ifadə azadlığının təşviqi ilə məşğul olan müstəqil qeyri-kommersiya təşkilatı Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun (RATİ) nəşridir. RATİ 2006-cı ildə Beynəlxalq Mətbuat Azadlığı Günündə iki azərbaycanlı jurnalist tərəfindən hökumətin ifadə və media azadlığını getdikcə daha çox məhdudlaşdırmasına cavab olaraq yaradılıb.

Təşkilatın hesabatları Azərbaycanda ifadə azadlığı ilə bağlı məsələlərin Birləşmiş Ştatlarda və Avropada müvafiq qurumların və rəsmilərin diqqətinə çatdırılmasında böyük əhəmiyyətə malik olub. RATİ 2007-ci ilin oktyabr ayından Beynəlxalq Söz Azadlığı Mübadiləsi təşkilatının (IFEX), 2012-ci ilin noyabrından isə Qlobal Şəbəkə Təşəbbüsü təşkilatının üzvüdür.

RATİ-nin geniş ifadə azadlığı yanaşması və onun mətbuat azadlığına qarşı ən hiddət doğuran əməllərə belə cəld reaksiya verməsi RATİ-nin Azərbaycandakı fəaliyyətinin əsasını təşkil edir. Həmkarımız Rasim Əliyevə həsr olunmuş bu hesabat eyni zamanda RATİ-nin Azərbaycanda ifadə azadlığını qorumaq və təşviq etməklə bağlı ümumi səylərinin bir hissəsidir.

RATİ-nin 2006-cı ildə təsis olunmasından bəri, onun əməkdaşları və müqaviləçiləri böyük təzyiqlərə məruz qalıblar. 2014-cü ilin avqustunda təşkilatın qanunsuz olaraq bağlanması və təşkilatın təsisçisi Emin Hüseynovun təqibə məruz qalması bu təzyiqlərin kulminasiya nöqtəsi olub. Rasim Əliyev qarşı 2015-ci ilin 8 avqustunda baş vermiş hücum hakimiyyətin RATİ-nin ofisinə reydi, RATİ və onun tele-layihəsi olan Obyektiv TV-nin ofislərinin bağlanması və fəaliyyətini dayandırmağa məcbur olmasından bir il sonraya təsadüf edir.

Eyni gündə, yəni 2014-cü il avqustun 8-də, RATİ direktoru Emin Hüseynov gizlənmək məcburiyyətində qalmış və az müddət sonra İsveçrənin Bakıdakı səfirliyində ona sığınacaq verilmişdi. Hüseynov orada 10 ay qaldıqdan sonra ona ölkədən çıxmağa icazə verildi, lakin eyni zamanda o, Azərbaycan vətəndaşlığından da məhrum edildi.

Jurnalist Rasim Əliyev qəddarcasına qətlə yetirilməsi Azərbaycanda jurnalistlər və KİV əməkdaşlarının məruz qaldığı təhdid və təhlükələrin kəskinliyini nümayiş etdirdi. Təəssüf ki, bu qətl Azərbaycanda jurnalistlərə qarşı zorakılığın tarixində aysberqin yalnız görünən hissəsidir. RATİ-də olan məlumatlara görə, Azərbaycanda son 13 ildə 300-dən çox jurnalist və media işçisi hədəfə alınıb.

Jurnalisti öldürməklə susdurmaq senzuranın ən son həddidir: prezident İlham Əliyevin 2003-cü ildə hakimiyyətə gəlişindən bəri Azərbaycanda beş jurnalist və media işçisi öldürülüb. Hədə-qorxu və təzyiqdən tutmuş məhdudlaşdırıcı siyasət və qanunsuz həbsə qədər, o cümlədən xanım jurnalistlərə qarşı hücumlar kimi əlavə təhlükələr vəziyyəti daha da ağırlaşdırır. Jurnalistlərə qarşı hücumların hər onundan doqquzunun üstünün açılmaması eyni dərəcədə narahatlıq doğurur. Son nəticə isə sonu görünməyən cəzasızlıq və ifadə azadlığına çəkindirici təsirdir. Azərbaycan cəmiyyəti qorxu və özünü-senzura mühitində yaşayır.

2014-cü ildə Azərbaycan hakimiyyəti müstəqil QHT-ləri sıradan çıxarmaq və hüquq müdafiəçilərini susdurmaq üçün amansız repressiya dalğasına start verdi. Bunun ilk mərhələsi kimi 2014-cü ilin aprelində Baş Prokurorluğun Ağır Cinayətlər Üzrə İstintaq İdarəsində yerli və beynəlxalq QHT-lərin fəaliyyəti ilə bağlı cinayət işi açıldı. Bu cinayət işi çərçivəsində ilk olaraq 2014-cü ilin iyulunda müstəqil QHT-lərin və hüquq müdafiəçilərinin, o cümlədən RATİ-nin və RATİ sədrinin, bank hesablarına həbs qoyuldu. Daha sonra hökumət saxta ittihamla 2014-cü ilin 30 iyul tarixində hüquq müdafiəçisi Leyla Yunusu, 2 avqust tarixində hüquq müdafiəçisi Rəsul Cəfərovu, 8 avqust tarixində isə hüquq müdafiəçisi İntiqam Əliyevi həbs etdi. 8 avqust 2014-cü il tarixində prokurorluq RATİ-nin ofisində qanunsuz axtarış aparmış və təşkilatın rəhbəri hüquq müdafiəçisi Emin Hüseynovun məcburi istintaq orqanına aparılması barədə qərar olduğunu bildirmişdi.

RATİ insan hüquqlarının müdafiəsi ilə məşğul olan təşkilat olaraq prezident İlham Əliyevi və onun rejimini sərt tənqid etmişdir. Eyni zamanda, RATİ fəaliyyət göstərdiyi illər ərzində bütün müvafiq qanun və prosedurlara tam şəkildə əməl edib. Birinci cümlədə göstərilən səbəbdən RATİ sədri Emin Hüseynov hakimiyyət üçün aşkar hədəf idi. Hər an baş verə biləcək saxta ittihamlara əsaslanan həbsdən yayınmaq üçün Hüseynov gizlənmək məcburiyyətində qaldı. Hüquq mühafizə orqanlarının qanunsuz və əsassız təqibindən xilas olmasında Hüseynova yardım edən şəxslərdən biri də Rasim

Əliyev olmuşdu. Emin Hüseynov bu barədə vətəndaşlığı əlindən alındıqdan və Azərbaycanı tərk etdikdən sonra 4 may 2016-cı il tarixində Əvəz Zeynalının "Qaynar qazan" verilişində danışıb.[1]

RATİ-nin apardığı araşdırmaya əsasən qeyd etmək olar ki, Rasim Əliyevin ölümünün rəsmi istintaqı bir çox suallar doğurur. Təşkilat hesab edir ki, hüquq mühafizə orqanları obyektiv araşdırma aparmayıblar və yalnız yüksək çinli məmurların sifarişi əsasında ittiham hazırlayıblar. Məhkəmə proseslərinin RATİ tərəfindən ardıcıl müşahidəsi bir sıra prosessual pozuntulara yol verildiyini üzə çıxarıb.

[1] https://www.youtube.com/watch?v=IQc5KqqW5p0

# JURNALİSTLƏRƏ QARŞI ZORAKILIĞIN CƏZASIZ QALMASI

Neftlə zəngin olan keçmiş Sovet ölkəsi Azərbaycan narahatedici insan hüquqlarının pozulması göstəricisinə malikdir. Azərbaycan hakimiyyəti özünü "tolerant ölkə" adlandırmasına baxmayaraq jurnalistləri və KİV işçilərini təqib edir və öldürür, müstəqil KİV-ləri və hüquq müdafiə təşkilatlarını bağlayır, və digər hüquqları pozur.

Jurnalistlərə və media işçilərinə qarşı zorakı hücumların tez-tez baş verməsi və günahkarların cəzasız qalması Azərbaycanda ifadə azadlığına ən böyük maneələrdən biri olaraq qalır.

2005-ci ilin martında "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynov sifarişli hesab olunacaq qədər planlı olan bir sui-qəsd nəticəsində qətlə yetirilib. Çoxsaylı ölüm təhdidləri alan jurnalist sonda Bakıda yaşadığı binanın pilləkənlərində odlu silahdan açılan atəşlə öldürülüb. Qətldən on ildən də çox vaxt keçməsinə baxmayaraq, hökumət bu qətli adekvat şəkildə araşdırmayıb və qətlə görə heç kim məsuliyyətə cəlb olunmayıb. Hüseynov kəskin araşdırmaları ilə tanınan və hakimiyyəti sərt tənqid edən bir jurnalist idi. Elmarın qətli Azərbaycanın media ictimaiyyətinə araşdırmaçı jurnalistikanın nə qədər cəsarət tələb etdiyini və bu işdə hansı risklərin olduğunu xatırladaraq dərin rəmzi mahiyyət qazanıb.

Sonrakı illərdə, jurnalistlər Alim Kazımlı (19.06.2005) Novruzəli Məmmədov (17.08.2009), Rafiq Tağı (23.11.2011) və Rasim Əliyev (09.08.2015) ifadə azadlıqlarından istifadə etməyin bədəlini ən ağır şəkildə ödədilər. Onlar təhdid və dözümsüzlük qarşısında azad sözün müdafiəsinə qalxmış insanlardır. Sonda isə onların prinsipial mövqeyi onlara həyatları bahasına başa gəlib. Bu dörd jurnalistin hər birinə bilərəkdən xəsarət yetirilib və onlar hakimiyyətin qəsdən laqeydlik göstərməsi nəticəsində xəstəxanada vəfat ediblər (Novruzəli Məmmədov məhbəs xəstəxanasında həbs şəraitinin pis olması və tibbi yardımın göstərilməməsi səbəbindən vəfat edib). Lakin məsələyə aidiyyəti olan tibb işçilərinin heç biri məsuliyyətə cəlb olunmayıb.

Azərbaycanda jurnalistlər təkcə öldürülməyib, həm də vəhşicəsinə döyülüb, oğurlanıb, bıçaqlanıb, intim video şantajına məruz qalıb. Hakimiyyət nə araşdırmaçı jurnalist Xədicə İsmayıla qarşı şantaj və hədə-qorxu kampaniyasını, nə də jurnalist Bahəddin Həziyevin döyülməsini araşdırmayıb.

Qətl və digər zorakı hücumlarla yanaşı, azərbaycanlı jurnalistlər və fəallar həbs yerlərində pis rəftara və işgəncəyə məruz qalıblar. 2015-ci ilin may ayında Avropa İnsan Hüquqları Məhkəməsi media azadlığı fəalı Emin Hüseynovun Azərbaycanın hakimiyyət orqanları tərəfindən işgəncəyə məruz qalması faktını tanıyıb. Hakimlər Hüseynovun əsas hüquqlarının çoxsaylı pozuntusuna - ona qarşı hücuma, lazımi istintaqın aparılmamasına, və ifadə və sərbəst toplaşma azadlığı hüququnun məhdudlaşdırılmasına görə məsuliyyəti hökumətin üzərinə qoyublar. 2008-ci ilin iyun ayında İlham Əliyev ikinci müddətə namizədliyini verməyə hazırlaşdığı bir vaxtda, Hüseynov tutularaq polis idarəsində ağır fiziki təzyiqə məruz qalıb. O, rayon polis şöbəsindəki hücum zamanı boynunun arxasından dəfələrlə vurulub və nəticədə travmatik beyin zədələnməsi ilə reanimasiyaya qəbul edilib. Hakimiyyət Hüseynovun sonradan verdiyi şikayəti araşdırmayıb.

Bundan başqa, jurnalistlərə qarşı polis zorakılığı ilə bağlı yüzlərlə rəsmi şikayətin də heç bir nəticəsi olmayıb. Heç kəs məsuliyyətə cəlb olunmayıb. Baxmayaraq ki, jurnalistlərin peşə fəaliyyətinə müdaxilə Azərbaycan Konstitusiyasının 50-ci (məlumat azadlığı) və Avropa Konvensiyasının 10-cu (ifadə azadlığı) maddələri ilə təminat verilən məlumat əldə etmək hüququnun pozulmasıdır. Eyni zamanda, jurnalistlərin fəaliyyətinə maneə törədilməsi Konstitusiyanın 163-cü maddəsinə əsasən məsuliyyət yaradır.

Hüquqları ciddi şəkildə pozulmuş jurnalistlər və media işçilərinin özləri üçün ədalətin təmin olunmasına və cavabdehin məsuliyyətə cəlb olunmasına nail olmaqda getdikcə daha çox çətinliklə üzləşirlər və bu, faktiki olaraq az qala qeyri-mümkün olur.

Ölkəni sarmış cəzasızlıq mühiti özünü-senzura praktikasının geniş yayılmasına səbəb olub. Bir çox jurnalistlər prezident ailəsinin korrupsiya əməlləri və biznes maraqları kimi tabu mövzularda yazarkən müəyyən cizgiləri keçməyə qorxurlar.

Azərbaycanda bu gün hakim olan düşmənçilik və dözümsüzlük mühiti jurnalistlərə xüsusilə mənfi təsir göstərir. Jurnalistlər öz qanuniliyi şübhə altına alınan və qanundan kənar elan edilən fəaliyyətlərini həyata keçirərkən böyük maneələrlə üzləşir, təhdidlərə, fəaliyyətlərinə və şəxsi təhlükəsizliklərinə qarşı qəsdlərə məruz qalırlar.

Tənqidi səsləri susdurmaq üçün hakim maraqlara "müdaxilə" edən jurnalistlərin sui-qəsdə, fiziki və mənəvi hücumlara məruz qaldığı cəzasızlıq mühitinə görə məsuliyyət, təbii ki, hazırkı rejimin üzərinə düşür.

# QƏTL

**HADİSƏLƏRİN XRONOLOGİYASI**

**2015-ci ilin iyulu: İnternetdə gələn təhdidedici mesajlar**

2015-ci il iyulun 25-də Rasim Əliyev öz Facebook səhifəsində yazır ki, internetə yüklədiyi polis zorakılığı, sosial narazılıq, məsələn "İstefa" sözü yazılmış baner daşıyan etirazçıların şəkilləri ilə əlaqədar ona təhdid mesajları gəlir. Rasim Əliyev ona "bu fotolara görə cəzalanacaqsan" mətnində təhdidin gəldiyini bildirir. O, 2015-ci il iyulun 25-də bu təhdidi ictimailəşdirir və bununla bağlı polisə şikayət edir, lakin polis Rasim Əliyevi qorumaq üçün heç bir addım atmır.

Eyni gündə, yəni 2015-ci il iyulun 25-də Rasim Əliyev Daxili İşlər Nazirliyinin 102 xidmətinə zəng edərək təhdid olunduğu barədə şikayət edir. Qaynar xəttə müraciətindən qısa müddət sonra Səbail Rayon 8-ci polis bölməsindən zəng edib izahat üçün idarəyə çağırırlar və Rasim Əliyev bölməyə gedərək izahat verir.

**7-8 avqust, 2015-ci il: Futbolçu Cavid Hüseynovla mübahisə**

7 avqust 2015-ci il tarixində, Rasim Əliyev öz Facebook profilində "Futbolçu Cavid Hüseynovdan kiprli jurnalistə tərbiyəsiz jest" başlıqlı xəbəri paylaşıb və yazıb ki, *"Bu cür əxlaqsız, tərbiyəsiz və özünü idarə etməyi bacarmayan bir futbolçunun məni Avropada təmsil etməsini istəmirəm"*. Növbəti gün, yəni avqustun 8-də, Rasim Əliyevin yazdığı statusun altına şərhlər yazılır və şərh yazanlardan biri də Cavid Hüseynovun bibisi oğlu Elşən İsmayılov olur. Təxribata çəkici ifadələrin də yer aldığı şərh sonradan Elşən İsmayılov tərəfindən silinir.

Həmin gün, Rasim Əliyevə günorta radələrində zəng gəlir[2]. Zəng edən şəxs Rasimi ağır söyüşlərlə təhqir edərək özünü təqdim etməsə də, istintaq sonradan onun Cavid Hüseynovun bibisi oğlu Elşən İsmayılov olduğunu müəyyən edir. Bu zəngdən üç dəqiqə sonra Qəbələ FK-nın oyunçusu Cavid Hüseynov Rasim Əliyevə zəng edir və bildirir ki, o, kiprli jurnalisti təhqir etməyib. Rasim Əliyev Cavid Hüseynovla danışığından sonra yenidən Facebook-da status yazır və deyir: *"Cavid Hüseynovla aramızda söhbət oldu və mənə bildirdiyinə görə, bu əl hərəkətləri heç də təhqiramiz hərəkət yox, Azərbaycan və Türkiyənin dost ölkələr olmasını bildirən işarədir. Cavidə də onu məsləhət görürəm ki, düzgün anlaşılmayan bu video ilə bağlı KİV-də açıqlama versin".*

**8 avqust 2015-ci il: Hücum**

Rasim Əliyevin mübahisənin bitdiyinə işarə edən bu dostyana Facebook statusundan sonra Elşən İsmayılov təxminən günorta saat 3 radələrində Rasim Əliyevə zəng edir və bildirir ki, Cavid Hüseynovla danışdım və Cavid deyir ki sənlə çay süfrəsi arxasında görüşüm və danışım. Rasim Əliyev məsələnin bitdiyini və buna ehtiyac olmadığını bildirir. Ancaq İsmayılov israr etdiyi üçün Rasim Əliyev bildirib ki, yaşadığı ərazidə görüşə bilər və Bayıl Qəsəbəsində yerləşən "Bayıl Marketin" qabağında görüş təyin edilir.

Rasim Əliyev saat 16.20-də maşını ilə Bayıl marketin qarşısına gəlmiş və maşından düşərək marketin qarşısında dayanan Elşən İsmayılov və Elşənin yanında olan Kənan Mədətovla əl uzadıb salamlaşıb. Həmin an Elşən İsmayılov Rasimin sinəsindən təpiklə bir dəfə vurmuş, həmin zərbənin təsirindən Rasim yerə yıxılmış, bundan sonra yerdə Elşən İsmayılov və ona yaxın yerdə gözləyən digər iki dostu Camal Məmmədov və Arif Əliyev də Rasim Əliyevə təpik zərbələri endiriblər. Elşən İsmayılovun digər iki dostu Kənan Mədətov və Samir Mustafayev Rasimə zərbə endirməyiblər.

Rasim Əliyev onların əlindən güclə xilas olub marketin qarşısında olan yolun o biri tərəfinə qaçır. Bundan sonra, Rasimi döyənlər də onun telefon və pulqabısını götürüb qaçırlar. Rasim Əliyev öz maşını

[2] Mənbə: istintaq sənədləri; Rasimin anası.

ilə Bayılda yerləşən təcili tibbi yardım stansiyasına gəlir və təcili yardım maşını ilə Rasim Əliyevi 1 saylı Şəhər Klinik Xəstəxanasına gətirirlər[3].

**8-9 avqust 2015-ci il: 1 saylı Şəhər Klinik Xəstəxanasında ölüm**

Rasim Əliyev saat 17.15 radələrində 1 saylı Şəhər Klinik Xəstəxanasına gəlib. Rasim Əliyev verdiyi müsahibədə də qeyd edir ki, həkim Babək Zeynalov onu müayinə edib və bir neçə qabırğasında sınıq olduğunu bildirib. Rasim Əliyev onu da deyir ki, sol qulağı eşitmir və xəstəxanada qulaq həkimi olmadığı üçün onun qulağını müayinə edən olmayıb[4].

Rasim Əliyev təxminən saat 17.30 radələrində, yəni hadisə baş verəndən qısa müddət sonra Daxili Işlər Nazirliyinin 102 xidmətinə zəng edir və döyülməsi faktı ilə bağlı məlumat verir. Səbail Rayon Polis İdarəsinin 8-ci polis bölməsinin polis əməkdaşları təxminən axşam saat 10 radələrində xəstəxanaya gəliblər və Rasim Əliyev ərizə verərək hadisə barədə məlumat verib. Polis əməkdaşları bildiriblər ki, sabah gəlib geniş şəkildə izahat alacaqlar. Rasim Əliyev xəstəxanada olarkən futbolçu Cavid Hüseynov təxminən axşam saat 9 radələrində Qəbələ futbol klubunun meneceri Səbuhi Səfiyarlı ilə birlikdə xəstəxanaya gəlir. Rasim Əliyev baş verənləri ona bildirir və Cavid Hüseynov məsələni araşdıracağını və qohumları edibsə yoluna qoyacağını deyib.

***Rasimin dostları və ailəsinin ifadələri***

Jurnalist, videoblogger, Rasim Əliyevin dostu Mehman Hüseynov bunları deyib:

*"Gecə saat 23:40 radələrində Rasim Əliyevi xəstəxanada ziyarət etdim. Təxminən bir saat qaldıqdan sonra saat 00:50 radələrində xəstəxanadan çıxdım. Bir saat sonra isə Rasimin vəziyyətinin pis olduğunu və əməliyyata aparıldığını öyrəndim. Rasimi sonuncu dəfə görən mən olmuşam və o, yaxşı idi."*

Mehman Hüseynov xəstəxananı tərk etdikdən qısa müddət sonra Rasim Əliyevin anasına xəstəxanadan zəng edilir və deyirlər ki, vəziyyəti yaxşı deyil, əməliyyat ediləcək.

**Rasim Əliyevin anası Teyfurə Əliyevanın 22 yanvar 2016-ci il tarixində Bakı Ağır Cinayətlər Məhkəməsindəki ifadəsindən sitat:**

*"**Avqustun 9-a keçən gecə saat 1-ə qalmış** Babək həkim (red: həkim Babək Zeynalov) zəng elədi, dedi ki, Rasimin vəziyyəti pisləşib, əməliyyata aparmalıyıq, təcili gəlin. Tez getdim. Reanimasiyanın qarşısında Saday həkim (red: həkim Saday Əliyev, cərrah) dedi ki, qabırğaları hər iki tərəfdən sınıb, ciyəri dağılıb, dalaq yoxdur… Babək həkim də yanında idi. Babək həkimə dedim ki, nə üçün müayinə və ondan sonrakı 7-8 saat ərzində mənə bu barədə deməmisiz. Təxminən yarım saat sonra (red: təxminən gecə saat 1.30-da) xəstəxanaya çatmışdım və tibbi bacısı dedi ki, əməliyyat qurtarıb. Dedim, mənə zəng eləyəndə bildirdiniz ki, əməliyyata aparırıq, bu cür ağır əməliyyat yarım saata, bir saata necə qurtara bilər? Reanimasiyaya girdim, gördüm ki, ağzı aralı, gözü açıqdı, özüm də tibb işçisiyəm, başa düşdüm ki, Rasim artıq yoxdur. Ona süni nəfəs aparatı qoşmuşdular. **Rasim cərrahiyyə əməliyyatı olunmadan ölmüşdü, həkimlər yalan deyirdilər. Ölmüş adamı xəstə adı ilə səhərə qədər saxlayıb bizi aldatdılar**."*[5]

Həkimlər **9 avqust səhər saat 5 radələrində** ailə üzvlərinə məlumat verirlər ki, Rasim Əliyev vəfat edib və Rasimin meyidi Respublika xəstəxanasına ekspertiza üçün göndərilir.

**9 avqust: Daxili İşlər Nazirliyi və Baş Prokuror tərəfindən birgə bəyanat**

9 avqust 2015-ci il tarixində Daxili İşlər Nazirliyi və Respublika Baş Prokurorluğu jurnalist Rasim Əliyevin ölümü ilə bağlı məlumat yayıb[6]. Hər iki qurumun mətbuat xidmətlərinin birgə yaydığı məlumatda deyilir:

---

[3] https://www.youtube.com/watch?v=4gE26It8aRw
[4] Baxın: İstinad 3
[5] http://www.azadliq.info/115754.html
[6] http://www.mia.gov.az/

*"Avqustun 8-də saat 18.00 radələrində Bakı şəhər sakini, 1984-cü il təvəllüdlü Əliyev Rasim Məmmədəli oğlu Səbail rayonu, Bayıl qəsəbəsi ərazisində fəaliyyət göstərən "Bayıl market" mağazasının qarşısında bir qrup naməlum şəxslər tərəfindən döyülərək çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib və aldığı xəsarətlərdən avqustun 9-da saat 05.00 radələrində orada vəfat edib. Faktla bağlı Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, şəhər prokurorluğu və şəhər Baş Polis İdarəsinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb. Cinayət işinin istintaqı Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin rəhbərliyinin xüsusi nəzarətindədir[7]".*

Eyni gündə, yəni avqustun 9-da Rasim Əliyevin döyülməsində şübhəli bilinən Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayev saxlanılır və bu şəxslər barəsində 10 avqust tarixində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib.

**10 avqust: Prezident Aparatından reaksiya**

Azərbaycan prezidenti İlham Əliyev jurnalistin ölümünün "sürətli və hərtərəfli" araşdırılması göstərişini verib. Prezident köməkçisi Əli Həsənov isə dövlət xəbər agentliyi Azərtaca bildirib ki, prezident bu hücumdan "ciddi narahatlıq keçirib" və istintaqa şəxsən nəzarət edəcək. Həsənov əlavə edib ki:

*"Azərbaycan Prezidenti bu faktı ölkədə söz və məlumat azadlığına, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətinə təhlükə və təhdid kimi qiymətləndirərək qeyd edib ki, demokratik prinsiplərin mühüm tərkib hissəsi olan KİV azadlığının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədi və prioritet vəzifələrindən biridir. Bu prinsipin pozulması dövlətin maraqlarına və həyata keçirilən siyasətin mahiyyətinə tamamilə ziddir və yolverilməzdir. Prezident İlham Əliyev hadisə barədə xəbər tutan kimi Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinə məsələnin qısa müddətdə, tam təfsilatı ilə araşdırılması, cinayətkarların tapılması və məsuliyyətə cəlb edilməsi, habelə hadisənin baş vermə səbəbləri, istintaqın gedişi haqqında dövlət başçısının və ictimaiyyətin müntəzəm qaydada məlumatlandırılması ilə bağlı tapşırıqlar verib. Azərbaycan Prezidenti məsələni şəxsi nəzarətində saxlayacağını və cinayətkarların tapılaraq qanuna uyğun şəkildə cəzalandırılacağını diqqətə çatdırıb."[8]*

**11 avqust: Cavid Hüseynovun həbsi**

Avqustun 11-də Daxili İşlər Nazirliyi və Baş Prokurorluq futbolçu Cavid Hüseynovun həbs edilməsi ilə bağlı birgə məlumat yayıb[9]. Məlumatda qeyd edilir ki, istintaqın hazırkı mərhələsində *"Cavid Hüseynovun, bibisi oğlu E.İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində əsaslı şübhələr olduğundan"* ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

---

[7] http://www.genprosecutor.gov.az/news/5/172
[8] http://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_jurnalistin_vefatindan_ciddi_narahat_olmus_ve_meselenin_arasdirilmasini_sexsi_nezaretine_goturmusdur-876435
[9] http://prosecutor.gov.az/news/5/170

# RASİM ƏLİYEVƏ 1 SAYLI ŞƏHƏR KLİNİK XƏSTƏXANASINDA GÖSTƏRİLƏN YARDIM VƏ MÜALİCƏ İLƏ BAĞLI MÜSTƏQİL ARAŞDIRMA

**Tibb personalının ifadələrində ziddiyyətlər**

13 avqust 2015-ci il tarixində, Rasimin Əliyevin müayinə və müalicəsi ilə məşğul olan 1 saylı Şəhər Klinik Xəstəxanasının həkimi Saday Əliyev axar.az xəbər saytına müsahibə verib. O, bildirib ki:

*"Rasim Əliyevi qəbul şöbəsində yoxlamışıq, rentgen eləmişik, analizlər götürmüşük. Eyni zamanda, başından aldığı zərbələrlə bağlı travmatoloqa da göstərmişik,* ***qulaqdan şikayətinə görə qulaq həkiminə də yoxlatmışıq". (Red: Bu açıqlama Rasim Əliyevin avqustun 8-də verdiyi müsahibə ilə kəskin ziddiyyət təşkil edir. Həmin müsahibədə Rasim açıq bildirir ki, xəstəxanada qulaq həkimi yox idi və onun qulağı müayinə olunmamışdı[10].*** *)*

*"Klinikaya daxil olanda qarın və döş qəfəsində maye olmayıb. İki qabırğasının sındığını aşkar etmişik. Ümumi müayinə 40 dəqiqə çəkib. Bu müayinələrdən sonra Rasim dedi ki, getmək istəyir. Biz onun xəstəxanada qalmalı olduğunu izah etməyə çalışırdıq. O isə qalmaq istəmirdi. Nəhayət, anası gələndən sonra razılaşdı. Ondan sonra qəbul şöbəsindən xəstəxanaya keçirmişik."*

Bu açıqlamada həkim Saday Əliyevin Rasimin valideynləri ilə tanış olduğu və müayinələrdə iştirakı görünür. Həkim Əliyev öz müraciətində daha sonra bildirir*: "Əməliyyat zamanı aydın oldu ki, xəstə bədənin hər tərəfini əhatə edən çoxsaylı, ağır travma alıb. Rasim Əliyevin ilk müayinədə qanaxması olmayıb. Ultrasəs müayinəsi də belə bir hal göstərməyib. Analizin nəticələrini əldə etdikdən sonra arxayın olduq ki, daxili qanaxma yoxdur. Ancaq onda iki məqamlı partlama olub. Dalağı partlayıb, pərdə dözməyib yığılıb.* ***Xəstənin gəlməsi ilə əməliyyatı arasında müddət bir saat çəkməyib (Red: Bu açıqlama avqustun 9-a keçən gecə saat 1-ə qalmış Rasimin anasına zəng edərək Rasimin təcili əməliyyat olunmalı olduğunu deyən həkim Babək Zeynalov da daxil olmaqla tibb personalının qalan hissəsinin ifadələri ilə ziddiyyət təşkil edir)****. Yenidən müayinə edəcəkdik ki, qanaxma ilə bağlı şübhələrə son qoyaq. Bir saat sonra xəbər gəldi ki, xəstənin vəziyyəti pisləşib."*

Bundan əlavə, həkim S.Əliyev Rasimin xəstəxanaya daxil olması ilə müayinələrin aparıldığını və bu müayinələrin 40 dəqiqə çəkdiyini deyir. Daha bir saat sonra yoxlayacaqlarmış ki, "xəstənin vəziyyətinin pisləşməsi" xəbəri gəlib. **Ancaq daha sonra həkim Saday Əliyev bu ziddiyyətli açıqlamanı verir:** " *Bir daha xatırladıram ki, mənim mərhum Rasim Əliyevin nə xəstəxanaya qəbulundan, nə onun müayinəsindən və nəzarət olunmasından xəbərim olub. Bu proseslərdə iştirak etməmişəm. Onun valideynlərini tanımıram, görməmişəm. Mənə yalnız məsul cərrah xəstəni təcili əməliyyat etməyi həvalə etdi və xəstəni mən yalnız əməliyyat stolunda görmüşəm. Vəssalam."* Həkimin müsahibəsinin audioyazısı[11] axar.az sayında yayılıb[12].

Bu açıqlama Saday həkimin avqustun 10-da report.az və axar.az-a verdiyi müsahibələrdəki daha öncəki açıqlamaları ilə aşkar surətdə ziddiyyət təşkil edir. Bu açıqlamalarda digər məsələlərlə yanaşı Saday həkim Rasim Əliyevi xəstəxanaya qəbul etdiyini və onun ilk müayinəsini həyata keçirdiyini bildirir.[13]

**Həkimlər təzadlı ifadələr veriblər**.

---

[10] Baxın: İstinad 3
[11]https://www.youtube.com/watch?v=UHaekLWPSEE
[12] http://axar.az/news/61277
[13] http://xalqxeber.az/gundem/21968-hekim-rasim-eliyevin-olum-sebebini-achiqlayib.html

Belə ki, Rasim Əliyevi ilkin olaraq müayinə edən həkim Babək Zeynalov istintaqa verdiyi ifadəsində göstərir ki, Rasim Əliyevin döş qəfəsinin sağ hissəsində 8, 9-cu qabırğaların yerini dəyişməyən qapalı sınığı və sinusda az miqdarda maye izlənmişdir.

Rasim Əliyevin rentgen şəkillərini yoxlayan Kliniki Tibbi Mərkəzin şüa və diaqnostika şöbəsinin müdiri Tamara Hacıyeva ifadəsində göstərmişdir ki, rentgen müayinəsi zamanı Rasim Əliyevin sağda 8 və 9-cu qabırğalarında yerdəyişmiş sınıq və sinusda maye yığılmasını müəyyən etmişdir.

Kliniki Tibbi Mərkəzin Cərrahiyə şöbəsində USM mütəxəssisi işləyən Arzu Rüstəmova ifadəsində göstərmişdir ki, 08 avqust 2015-ci ildə saat 17:30-da xəstə Rasim Əliyevi travmatoloq Vüqar həkimin (red: soyadı məlum deyil) göndərişi ilə USM-si etmiş və müayinə nəticəsində müəyyən edilmişdir ki, Rasim Əliyevin qarın boşluğunda sərbəst maye yoxdur, parenximatoz (qara ciyər, dalaq, böyrəklər, mədəaltı vəz) orqanlarda hematoma yoxdur.

RATİ-nin araşdırma qrupu tibb personalının ifadələri də daxil olmaqla iş materiallarını və Rasimin son müsahibəsinin video görüntüsünü müstəqil tibb eksperti ilə paylaşaraq peşəkar rəy verməsini xahiş etmişdir. Adının açıqlanmasını istəməyən ekspertlə aparılmış müsahibənin mətni aşağıda təqdim edilir:

*"Əgər bir insan daxili orqanlarına küt zərbə alıbsa bu zaman daxili orqanların zədələnməsi qaçınılmazdır. Xəstə rentgen və komputer tomoqrafiyadan keçirilməli, daim müşayiət altında saxlanılmalıdır. Xəstə hər yarım saatdan bir yenidən rentgen müayinədən keçirilməlidir. Çünki əgər ilk anlarda daxili qanaxma və yaxud hər hansı orqanın zədələnməsi müşayiət edilmirsə bu o demək deyil ki qanaxma riski yoxdur. Sınıq zamanı həkim ilk əvvəl sınığın növünü, dərəcəsini müəyyən etməli, xəstənin həyatı üçün təhlükəli əlamətlər aradan qaldırılmalıdır. Bundan sonra ya şina qoymalı, ya da steril sarğı qoyub, şina ilə bərkidilməlidir. Sınmış sümük hissələri yerini dəyişən və ya dəyişməyən olur. Ümumiyyətlə sınıqlar zamanı ilk yardım sınmış sümüklərin hərəkətsizliyinin təmin olunmasına xidmət etməlidir.* ***Sınıqlar zamanı yardımın düzgün göstərilməməsi xəstənin vəziyyətini bir qədər də ağırlaşdıra bilər. Eyni zamanda daxili qanaxma vaxtında təyin olunmadıqda, tibbi yardım gecikə bilər ki, bu da xəstənin həlak olması ilə nəticələnə bilər.*** *Daxili qanaxma riski olan xəstə yarı oturaq vəziyyətdə olmalıdır. Daxili qanaxmaya şübhə olduğu halda, xəstəyə nə yemək, nə su, nə də ağrını kəsmək üçün dərman preparatları vermək olmaz. Qanaxma riski varsa xəstəni hərəkət etməyə və danışmağa imkan verməmək lazımdır. Ancaq sizin təqdim etdiyiniz video kadrlarda görünür ki, xəstə saatlarla danışıb, hərəkət edib. Həkimlər də açıqlamalarında bildiriblər ki, Rasim Əliyevə ağrıkəsici iynələr vurulub.* ***Hansı səbəbdən olduğunu deyə bilmərəm amma bu birmənalıdır ki, həkimlər Rasim Əliyevin vəziyyətini diqqətdə saxlamayıblar. Vaxtında və düzgün tibbi yardım edilsəydi Rasim Əliyevin yaşamaq şansı çox idi,"*** *deyə həkim qeyd edib.*

# REAKSİYALAR

**Qətlə ölkə daxilində və xaricində verilən reaksiyalar**

Hökumət internetin tənzimlənmə məsələsini dəfələrlə gündəmə gətirib. Onlayn televiziyaların lisenziyalaşdırılması barədə rəsmilər dəfələrlə fikirlər səsləndiriblər. Hətta bəzi deputatlar sosial şəbəkələrə də qadağalar qoyulmasını təklif ediblər. Rasim Əliyevin ölümü onlayn tənzimlənmə məsələsini yenidən gündəmə gətirilməsinə səbəb olub.

**11 avqust 2015, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov[14]:**

*"Sosial şəbəkə, xəbər portallarının tənzimlənməsi heç bir ölkədə mümkün deyil, yalnız terrorizm, insan alveri və sair kimi məsələlərdə qadağa qoyulur. Azərbaycanda sosial şəbəkələrdə peşə etik kodeksinə əməl edilməsi ilə bağlı proqram hazırlanmayıb. Sosial şəbəkələrdə bəzi insanlar alçaldıcı statuslar yazırlar. İnsanların dözüm səviyyəsi eyni deyil. Ona görə də təhqiramiz statuslara insanların reaksiyası müxtəlif olur və hətta ölüm hadisəsi belə baş verir. Ona görə də fikir söyləyərkən qarşındakı adama da hörmət etməlisən."*

**12 avqust 2015, ATƏT-in media azadlığı üzrə nümayəndəsi Dunja Mijatović** Azərbaycan prezidentinə məktub ünvanlayaraq jurnalist Rasim Əliyevin ölümünü pisləyib. O, ölkədə media azadlığının vəziyyətinin pisləşdiyini qeyd edib və hakimiyyəti jurnalistlərin təhlükəsizliyini təmin etməyə çağırıb. "Bu son faciəvi hadisə bir daha sübut edir ki, hakimiyyətin konstruktiv dialoqda iştirak etməklə bağlı beynəlxalq təşkilatların xəbərdarlığına və vətəndaş cəmiyyətinin çağırışlarına qulaq asmasının və vəziyyətin ciddiliyini inkar etməyə son verməsinin vaxtı çoxdan çatıb," Mijatovic prezidentə məktubunda qeyd edib. Dunja Mijatović bildirib ki, o, Azərbaycanda jurnalistlərə qarşı təhlükə və həbs məsələsini dəfələrlə qaldırsa da "təəssüf ki, demək olar heç bir tədbir görülməyib."[15]

**11 avqust 2015**, Kopenhagendə yerləşən media azadlığı üzrə QHT Beynəlxalq Mediaya Dəstək təşkilatı bəyanat verib[16]: *"Azərbaycanda jurnalistlərə hücuma görə cəzasızlıq atmosferi cinayətlərin üstünü açılmaz edir. Bu isə ifadə azadlığına qarşı davamlı repressiyaya təkan verir. Son 10 ildə ölkədə jurnalistlərə 300-dən çox hücum olub. Son ildə 7 jurnalist və 5 hüquq müdafiəçisi həbs olunub. Media və insan hüquqları mütəxəssislərinə qarşı təzyiqlərin siyahısı isə daha böyükdür. Hakimiyyət jurnalistlərə qarşı zorakılıq cinayətlərinə görə cəzasızlığa son qoymalıdır. R.Əliyevin vaxtsız ölümü Azərbaycanda ifadə azadlığının ağır vəziyyətdə olduğunu, jurnalist və hüquq müdafiəçilərini qoruma mexanizminin yaradılmasının vacibliyini xatırladır*."

**11 avqust 2015**, Avropa Şurasının baş katibi Torbyörn Yaqland[17] bəyanat verib: "Bu, ölkədə jurnalistlərin təhlükəsizliyi ilə bağlı durumun daha da pisləşməsini göstərən, narahatlıq doğuran əlamətdir. Azərbaycan hakimiyyətini bu qətli hərtərəfli və sürətlə araşdırmağa, günahkarları məsuliyyətə cəlb etməyə çağırıram. Bu faciəvi hadisə hakimiyyətə və bütövlükdə cəmiyyətə sonuncu dəfə xatırlatmalıdır ki, ölkə bu cür davam edə bilməz."

**10 avqust 2015,** Avropa Jurnalistlər Federasiyasının prezidenti Moqens Bliçer bildirib[18]:

*"Azərbaycanda jurnalist və hüquq müdafiəçilərinə qarşı zorakılıq əməlləri üçün cəzasızlıq mühiti hökm sürür, ağır cinayətlər cəzasız qalır. Azərbaycanda jurnalistlər və hər bir vətəndaş sosial şəbəkələrdə öz fikir və şərhlərini sərbəst bölüşə bilməlidir,"*

---

[14] https://www.youtube.com/watch?v=naFfCpBiPU4
[15] http://www.osce.org/fom/176611
[16] https://www.mediasupport.org/ims-condemns-killing-journalist-azerbaijan/
[17] https://www.theguardian.com/world/2015/aug/10/azerbaijani-journalist-rasim-aliyev-javid-huseynov
[18] http://www.ifj.org/nc/news-single-view/backpid/1/article/ifj-and-efj-mourn-the-killing-of-journalist-rasim-aliyev-in-azerbaijan/

**10 avqust 2015,** "Hüquqlar üçün İdman" (Sport for Rights) kampaniyası, ifadə azadlığı təşkilatları, birgə bəyanat veriblər. *"Rasim Əliyevin ölümü Azərbaycanda jurnalistlərə qarşı zorakılıq çarxının bir hissəsidir. Bu hücum Avropa Oyunlarından sonra və Azərbaycanda noyabrda keçiriləcək parlament seçkiləri ərəfəsində insan hüquqlarına qarşı amansız basqıların fonunda baş verir,"* deyə bəyanatda qeyd olunur[19].

**12 Avqust 2015**, YUNESKO Baş Direktoru İrina Bokova Rasim Əliyevin öldürülməsini pisləyib. *"Hakimiyyət cənab Əliyevin ölümünə görə cavabdeh olanların məsuliyyətə cəlb olunmasını təmin etməlidir. Bu, qanunun aliliyi və mətbuat azadlığının qorunması üçün vacibdir. Jurnalistlərə qarşı törədilən cinayətlərə görə cəzasızlığın kök salmasına yol vermək olmaz*," deyə xanım Bokova qeyd edib.[20]

[19] https://www.fidh.org/en/issues/human-rights-defenders/azerbaijan-journalist-rasim-aliyev-murdered-as-human-rights-crackdown
[20] http://en.unesco.org/news/director-general-calls-investigation-killing-journalist-rasim-aliyev-baku

# HÜQUQ POZUNTULARI

22 dekabr 2015-ci il tarixində Rasim Əliyevin döyülməsi və xəstəxanada vəfat etməsi ilə bağlı Kənan Mədətov, Camal Məmmədov və Samir Mustafayevin Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda), Elşən İsmayılov və Arif Əliyevin isə həmin Məcəllənin 126.3 və 177.1-ci (oğurluq) maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə ittiham aktı təsdiqlənərək baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Cinayət işinin materiallarından Cavid Hüseynovun Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələri ilə təqsirləndirilməsinə dair iş ayrıca icraata ayrılıb.

Rasim Əliyevin hüquqlarını müdafiə edən vəkillər istintaqda bir sıra qanunsuzluqların baş verdiyini bildiriblər.

Rasim Əliyevin vəkilləri və ailəsi bildirir ki, Rasim Əliyevin həkim səhlənkarlığından, vaxtında əməliyyat edilməməsi nəticəsində vəfat etməsinə görə Klinik Tibbi Mərkəzin həkimlərinin də cinayət məsuliyyətinə cəlb edilməsini tələb etsələr də, şəhər Prokurorluğu vəsatətləri heç bir səbəb olmadan rədd edib. 9 sentyabr 2015-ci il tarixində Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev Bakı şəhər Prokurorluğuna məktub göndərərək Rasim Əliyevin ölümündə həkimlərin rolunun olmadığını, ona vaxtında müayinə və müalicələr təşkil olunduğunu qeyd edib.

Rasim Əliyevin hüquqlarını müdafiə edən vəkil Fariz Namazlı hesab edir ki,  Bakı şəhər Prokurorluğu Cavid Hüseynovun Rasim Əliyevin qətlində hər hansı formada iştirak etmədiyi qənaətinə gəlməsi əsassızdır. Çünki Rasim Əliyevin döyülməsi məhz Cavid Hüseynova görə baş verib, Cavidin Rasim Əliyevə zəng etməsi, Rasimin məhz onun tərəfindən Bayıla çay içməyə çağırılmağa təkid olunması, hadisə baş verdikdən sonra Cavidin bibisi oğlu Elşən İsmayılova mesajları silməyi və onun hansı formada ifadə verməsini tapşırması, Rasim döyüldükdən sonra Elşənin dostları ilə yazışmasında problemin Cavid tərəfindən həll ediləcəyinin göstərilməsi Rasim Əliyevin Cavid Hüseynovun təşkilatçılığı ilə döyülməsini təsdiq edir. Lakin istintaq orqanı fərqli nəticəyə gələrək C.Hüseynova qarşı daha ağır ittihamlar irəli sürməkdənsə, daha yüngül cinayət məsuliyyətinə səbəb olan ittihamlar irəli sürdü.

**Məhkəmədə baş verənlər**

Rasim Əliyevin  qətlə yetirilməsi faktı üzrə iki ayrı cinayət işi üzrə məhkəmə prosesi keçirilib.

İlk proses əsas cinayətkarların, cinayət əməlinin törədilməsinə görə cavabdeh olan şəxslərin - Elşən İsmayılov, Kənan Mədətov, Samir Mustafayev, Arif Əliyev və Camal Məmmədovun təqsirləndirilməsinə dair keçirilib. Məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilib. Proses dörd ay davam edib. RATİ-nin məhkəmə monitorinq heyəti tərəfindən bütün məhkəmə prosesləri izlənib. Monitorinq heyətinin məlumatına əsasən, bu cinayət işi üzrə 18 məhkəmə prosesi keçirilib.

Monitorinq heyəti məhkəmə zamanı bir sıra pozuntular qeydə alıblar. Məhkəmə özlüyündə, həmçinin cəzasızlıq məsələsi barədə məlumatlılığın artırılması baxımından ictimai əhəmiyyət daşıdığı halda məhkəmə iclasları kiçik zalda keçirilib və məhkəməni elə də çox insan izləyə bilməyib. Halbuki Bakı Ağır Cinayətlər Məhkəməsinin geniş iclas zalı var və jurnalistin işi üzrə iclaslar keçirilən zaman həmin geniş zal boş olub.

Məhkəmə iclasında vəkil vəsatət verərək işə məhkəmədə baxılmasına xitam verilməsi və işin ibtidai araşdırmaya rəhbərlik edən prokurora qaytarılmasını xahiş edib. Zərərçəkmiş şəxsin hüququ varisinin ibtidai istintaq zamanı verdiyi vəsatətlərdə Rasim Əliyevin ölümündə Cavid Hüseynovun təşkilatçı olması, həmçinin Rasim Əliyevin ölümündə həkim səhlənkarlığının olması göstərilsə də vəsatətlər təmin edilməyib.

Vəkil iş üçün əhəmiyyət kəsb edən bəzi şəxslərin şahid kimi dindirilməsi barədə vəsatət verib, hansı ki bu şəxslər istintaq zamanı dindiriliblər, ancaq ittiham aktına şahidlər siyahısına əlavə edilməyiblər. Halbuki həmin şahidlərin ifadələri əhəmiyyətli olub. Məhkəmə vəsatəti təmin etməyib. Vəkil

xəstəxanada olarkən Rasim Əliyevdən izahat alan polis əməkdaşının məhkəmədə dindirilməsini istəsə də vəsatəti təmin edilməyib. Hətta Rasim Əliyevin xəstəxanada rentgen aparatından keçirilməsi barədə müvafiq sənədlər məhkəmədə araşdırılmayıb.

Cinayət Məcəlləsinin 314-cü maddəsi səhlənkarlıq cinayəti haqqında deyir*: "Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində onun öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi kimi hərəkətlər fiziki, hüquqi şəxslərin qanuni mənafelərinə mühüm zərər vurduqda cinayət məsuliyyətinə səbəb olur. Bu kimi cinayətlərin istintaqı Baş Prokurorluğun nəzarəti altında hadisənin baş verdiyi yer üzrə prokurorluq orqanları tərəfindən aparılır."*

Məhkəmədə 1 saylı Şəhər Klinik Xəstəxanasının həkimləri və Rasim Əliyevin təhlükəsizliyini təmin etməyən polislər barəsində ən azından bu maddə üzrə cinayət işi açılmalı olduğu halda açılmadı.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 1 aprel 2016-cı il tarixli hökmünə əsasən təqsirləndirilən Elşən İsmayılov ona irəli sürülmüş hər iki ittiham üzrə təqsirli bilinərək 13 il, Arif Əliyev 12 il 6 ay, Camal Məmmədov 11 il, Samir Mustafayev və Kənan Mədətov isə 9 il müddətinə azadlıqdan məhrum edilib.

Rasim Əliyevə qarşı cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə ittihamı ilə həbs edilən Qəbələ futbol klubunun kapitanı Cavid Hüseynovun işinə isə Səbail Rayon məhkəməsində baxılıb. Bu iş üzrə 12 məhkəmə prosesi keçirilib və Cavid Hüseynov Səbail Rayon Məhkəməsinin 31 may 2016-ci il tarixli hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edilib.

# MEYDANA ÇIXAN MƏSƏLƏLƏR, ŞƏRHLƏR VƏ TƏHLİLLƏR

RATİ Rasim Əliyevin ölümünün baş verdiyi şəraiti araşdıraraq belə nəticəyə gəlib ki, Rasim Əliyevin qətli siyasi motivlidir və ədalətin bərqərar olacağına çox az ehtimal var.

Birincisi, onun qətli onun təşkilatının - 2014-cü ildə qanunsuz olaraq bağlanan və 2006-cı ildə yaranmasından bəri çoxsaylı təzyiqlərə və məhkəmə iddialarına məruz qalan RATİ-nin fəaliyyəti ilə əlaqələndirilir.

RATİ-nin 2006-cı ildə təsis olunmasından bəri, onun əməkdaşları və müqaviləçiləri böyük təzyiqlərə məruz qalıblar. 2014-cü ilin avqustunda təşkilatın qanunsuz olaraq bağlanması və təşkilatın təsisçisi Emin Hüseynovun təqibə məruz qalması bu təzyiqlərin kulminasiya nöqtəsi olub. Rasim Əliyevə qarşı 2015-ci ilin 8 avqustunda baş vermiş hücum hakimiyyətin RATİ-nin ofisinə reydi, RATİ və onun tele-layihəsi olan Obyektiv TV-nin ofislərinin bağlanması və fəaliyyətini dayandırmağa məcbur olmasından bir il sonraya təsadüf edir.

Eyni gündə, yəni 2014-cü il avqustun 8-də, RATİ direktoru Emin Hüseynov gizlənmək məcburiyyətində qalmış və az müddət sonra İsveçrənin Bakıdakı səfirliyində ona sığınacaq verilmişdi. Hüseynov orada 10 ay qaldıqdan sonra ona ölkədən çıxmağa icazə verildi, lakin eyni zamanda o, Azərbaycan vətəndaşlığından da məhrum edildi.

Hüquq mühafizə orqanları 2014-cü ilin avqustunda RATİ-nin ofisində reyd edərkən Emin Hüseynovu oranın yaxınlığından müvəqqəti təhlükəsiz bir yerə öz avtomobili ilə aparan Rasim Əliyev olub.

2014-cü ilin oktyabrında Rasim Əliyev RATİ sədri seçilərək Hüseynovu bu vəzifədə əvəzlədi. Bu seçkinin protokolu Azərbaycanın Ədliyyə Nazirliyinə göndərildi. Təşkilatın ən ağır dönəmində, hakimiyyətin şiddətli təzyiqi nəticəsində faktiki olaraq iflic duruma düşdüyü bir vaxtda RATİ-yə rəhbərliyi Rasim Əliyev öz üzərinə götürdü.

RATİ öz fəaliyyəti ilə diqqətləri Azərbaycanda insan hüquqlarına misli görünməmiş basqılara çəkməyə çalışan beynəlxalq təşkilatların koalisiyası olan "Hüquqlar üçün İdman" kampaniyasının bir hissəsi olub. "Hüquqlar üçün İdman" kampaniyası sayəsində beynəlxalq media 2015-ci ilin iyununda keçirilmiş ilk Avropa Oyunları kontekstində diqqətlərini Azərbaycana çevirdilər. Basqıların Oyunların ərəfəsində baş verməsi təsadüfi deyildi. Özünün 2012-ci il Avroviziya Mahnı Müsabiqəsindəki təcrübəsindən ruhlanan Azərbaycan hakimiyyəti tənqidi və ya fərqli fikir səsləndirməyə cürət edən az saylı şəxsləri hədəf almışdı. Hətta Avropa Oyunlardan sonra və parlament seçkiləri qabağı dövrdə belə əbədi repressiya dalğasının sonu görünmürdü.

Hökumət Oyunların mediada müsbət işıqlanacağı ümidi ilə resursları qənaət etmədən xərcləyirdi. Lakin "Hüquqlar üçün İdman" kampaniyası sayəsində, Oyunlar hökumət və onun beynəlxalq imici üçün piar fəlakətinə çevrildi.

Piar cəhdlərinin iflas etməsindən məyus olan **hakimiyyət bəlkə də "Hüquqlar üçün İdman" kampaniyasından qisas almağa çalışırdı**. Hüquq müdafiəçisi və jurnalistə qarşı hücumun atletlər tərəfindən, həm də başqa bir tanınmış jurnalist və "Hüquqlar üçün İdman" kampaniyası üzvü Emin Millinin Azərbaycanın idman naziri Azad Rəhimovdan qorxuducu mesaj almasından dərhal sonra baş verməsi **qətllə kampaniya arasında mümkün bağlılığa işarə edir**.

Ölümündən öncəki üç həftə ərzində Rasim Əliyev ona sosial şəbəkədə davamlı olaraq təhdid və hədə-qorxular gəldiyini bildirirdi.

Məsələn, Rasim Əliyev ölümündən təxminən 2 həftə əvvəl, yəni 25 iyul 2015-ci il tarixində sosial şəbəkə vasitəsilə jurnalist fəaliyyətinə görə ölümlə təhdid olunur. Təhdid edən şəxs Rasim Əliyevin RATİ-də fəaliyyət göstərdiyi dövrdə çəkdiyi foto və videolara görə cavab verəcəyini bildirib. Rasim Əliyev elə 25 iyul tarixində Daxili İşlər Nazirliyinin 102 xidmətinə zəng edərək təhdid olunduğu barədə şikayət edir. Qaynar xəttə müraciətindən qısa müddət sonra Səbail Rayon 8-ci polis bölməsindən zəng edib izahat üçün idarəyə çağırırlar və Rasim Əliyev bölməyə gedərək izahat verir.

“Polis haqqında” Qanunun 3-cü maddəsində göstərilir ki[21], *Azərbaycan Respublikasında polisin təyinatı insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqa zidd əməllərdən qorumaqdan ibarətdir.* Ancaq polis Rasim Əliyevi qorumadı və öz vəzifəsini yerinə yetirmədi.

Polislər tərəfindən Rasim Əliyevə qarşı ayrı-seçkilik edilib. Belə ki, Rasim Əliyev öz fəaliyyəti və kimliyi barədə məlumat verib və polis də onu qorumaqda maraqlı olmayıb. Halbuki Polis haqqında Qanunun 5-ci maddəsində göstərilir ki, Polis öz vəzifələrini yerinə yetirərkən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqa zidd əməllərdən qoruyur.

Polis haqqında Qanunun 14-cü maddəsində də göstərilir ki, polisin əsas ilk vəzifəsi hər bir şəxsin təhlükəsizliyini təmin etməkdir. Polisin Rasim Əliyevin təhlükəsizliyini təmin etməməsi istintaq orqanı və məhkəmə tərəfindən araşdırılmadı. Bu hadisənin üzərindən olmamış kimi keçildi. Hesab edirik ki, polislər Rasim Əliyevin qətlində siyasi sifarişin icraçıları qismində iştirak ediblər.

Azərbaycan Respublikasının ərazisində hüquq və azadlıqların bərabərliyi, şəxsi toxunulmazlığın qorunması, şərəf və ləyaqət, səsvermə hüquqları, informasiya, fikir və hər hansı bir şəxsin ifadə azadlığı təmin edilir. Azərbaycan Respublikasının 163-cü maddəsində siyasi mövqeyi və təmsil etdikləri mətbuat orqanı nəzərə alınmadan KİV təmsilçilərinin peşə borclarını yerinə yetirməsinə və jurnalistlərin qanuni peşə fəaliyyətinin həyata keçirilməsinə hər hansı formada mane olmaqla bağlı məsuliyyət müəyyən olunub[22].

RATİ-nin apardığı araşdırma ilə belə nəticəyə gəlinib ki, tibbi səhlənkarlıq, yəni 1 saylı Şəhər Klinik Xəstəxanasının tibbi personalının vaxtında və peşəkarcasına tibbi yardım və müalicəni təmin edə bilməməsi Rasim Əliyevin ölümünün əsas səbəblərindən biridir.

Kliniki Tibbi Mərkəzin Cərrahiyə şöbəsində USM eksperti işləyən **Arzu Rüstəmova istintaqa ifadəsində** göstərmişdir ki, 08 avqust 2015-ci ildə saat 17:30-da xəstə Rasim Əliyevi travmatoloq Vüqar həkimin (red: soyadı məlum deyil) göndərişi ilə USM-si etmiş və müayinə nəticəsində müəyyən edilmişdir ki, Rasim Əliyevin qarın boşluğunda sərbəst maye yoxdur, parenximatoz (qara ciyər, dalaq, böyrəklər, mədəaltı vəz) orqanlarda hematoma yoxdur.

İş üzrə şahid qismində dindirilmiş Azərbaycan Tibb Universitetinin Cərrahiyə kafedrasının professoru **həkim Saday Əliyev istintaqa verdiyi ifadəsində** deyir: 8 avqust 2015-ci il tarixdə 1 saylı Şəhər Klinik Xəstəxanasında növbətçi həkim cərrah olmuş, ondan başqa məsul növbətçi cərrah dosent həkim Babək Zeynalov, digər növbətçi cərrah həkim Əli İsmayılov da həmin sutka növbədə olmuşlar.

2015-ci ilin avqust ayının 8-dən 9-na keçən gecə saat 00:30 radələrində həkim Babək Zeynalov xəstə Rasim Əliyevin vəziyyətinin pisləşdiyini, qarın boşluğunda maye aşkar edildiyini və xəstənin təcili

---

[21]http://mia.gov.az/index.php?/en/content/193/

[22]163.1. Jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma, yəni zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə onları məlumat yaymağa və ya məlumat yaymaqdan imtinaya vadar etmə –

yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

163.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə islah işləri ilə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

əməliyyata götürülməli olmasını bildirmişdir. Dərhal tərəfindən əməliyyat icra edilmiş, əməliyyatda cərrahlar Əli İsmayılov və Babək Zeynalov, anestezioloq Fətəli Fətəliyev, adını xatırlamadığı tibb bacısı da iştirak etmişdir. Əməliyyat 1 saat 35 dəqiqə davam etməklə təxminən saat 02:00 radələrində başa çatmışdır.

Əməliyyat zamanı qarın boşluğu açılarkən müəyyən edilmişdir ki, orada 1,5 litrdən çox qan və qan laxtaları vardır. Qanın təxminən 1,2 litri reinfuziya (təkrarən xəstəyə köçürmə) olunmuşdur. Təftiş zamanı dalağın mərkəzindən qapısına doğru gedən geniş partlaması, mədəaltı vəzinin quyruğunun partlaması və mədə-mədəaltı vəzi bağının hemorrogik inbibisiya (qanla hopma) aşkar edilmişdir. Splenektomiya (dalaq çıxarılması) icra edilmiş, mədəaltı vəzin quyruq hissəsinin zədə deffekti tikilmiş və qanaxma tam dayandırılmışdır. Təftiş davam etdirilmiş və digər daxili orqanların zədələnməsi aşkar edilməmişdir. Qarın boşluğu yuyulub qurudulmuş, sağdan, soldan və çanaqdan cəmi üç drenaj qoyulmaqla əməliyyat yekunlaşdırılmışdır. Əməliyyat boyu xəstənin hemodinamik göstəricilərinin nisbətən bərpa olunmasına baxmayaraq (A/T 120-80, nəbz 120) xəstənin saturasiyası düşməyə meyilli olduğundan (60-35 arası) xəstəyə əlavə 300 ml donor eritrosit kütləsi, 200 ml plazma və digər qan əvəzedici məhlullar köçürülmüşdür. Lakin saturasiya bərpa olunmamışdır. Bu vəziyyət ağ ciyərlərin zədələnməsi ilə əlaqədar xəstədə respirator hipoksiyasının olması barədə şübhələnməyə əsas verdiyindən (travmanı nəzərə alaraq) hər iki tərəfdən torakosentez (plevra boşluğunun drenajlanması) icra edilmişdir. Bu vaxt sol plevra boşluğundan təxminən 120-150 ml qan xaric olunmuş və tez bir zamanda kəsilmişdir. Sağ plevra boşluğundan isə yalnız hava qabarcıqları xaric olunmuşdur. Havanın xaric olunması fasilələrlə davam etmiş və sonra kəsilmişdir. Xəstə əməliyyatdan sonra ağır vəziyyətdə süni tənəffüs aparatına birləşdirilmiş halda Reanimasiya şöbəsinə yerləşdirilmişdir. Bütün gecə boyu xəstəyə intensiv reanimasiyon tədbirlər kompleksi aparılsa da proqressiv inkişaf edən kəskin tənəffüs və ürək damar çatmamazılığı nəticəsində 09 avqust 2015-ci ildə saat 05:20-də xəstə Əliyev Rasim Məmmədəli oğlunda bioloji ölüm baş vermişdir.

**Həkim Babək Zeynalov** ifadəsində bildirib: *08 avqust 2015-ci il tarixdə saat 17:15 radələrində KTM-in qəbul şöbəsinə TTY (təcili tibbi yardım) stansiyasının avtomaşını ilə həkim briqadası tərəfindən Əliyev Rasim Məmmədəli oğlu "başın, döş qəfəsinin, kürəyin və qarnın küt travması" diaqnozu ilə gətirilmişdir. Həmin xəstə ilk olaraq mənim tərəfimdən qəbul olunmuş, döş qəfəsinin, başın və üzün rengtenoloji müayinəsi, qarın boşluğunun USM edilmiş və laborator analizlər götürülmüşdür. Müayinə nəticəsində döş qəfəsinin sağ hissəsində 8, 9-cu qabırğaların yerini dəyişməyən qapalı sınığı və sinusda az miqdarda maye izlənmişdir. Qarın boşluğunun USM-də və kəllənin rentgen müayinəsi nəticəsində xəstədə patologiya aşkar edilməmişdir. Bundan sonra xəstə dinamik müşahidə məqsədilə stasionara qəbul olunmuş və nəzarətdə saxlanılmışdır. Həmin müddətdə huşu tam aydın, aktiv olmuş, sərbəst olaraq danışmışdır. Xəstə Rasim Əliyev daxil olan zaman özünü yaxşı hiss etmiş, sadəcə başının, döş qəfəsinin və sol qulağının ağrılarından şikayət etmişdir. Nəzərə almaq lazımdır ki, alınmış travma ilə əlaqədar xəstəyə TTY həkimi tərəfindən müvafiq ağrıkəsicilər vurulmuşdur. Xəstə Rasim Əliyev bütün zəruri müayinələrdən keçirildikdən sonra Cərrahiyə şöbəsinin palatasına yerləşdirilmiş və sistem qoşulmuşdur. Tərəfindən mütəmadi olaraq xəstəyə baxış keçirilmiş, xəstədə daxili qanaxmaya əsaslı şübhələr olmamış və dinamik müşahidə davam etdirilmişdir. Saat 00:20 radələrində xəstə Rasim Əliyevin vəziyyəti qəflətən pisləşmiş, qarında yayılmış ağrılar başlamış, baş gicəllənmə ümumi zəiflik qeyd olunmuş, A/T 80/50 mm c/s-na düşmüş, bədəni soyuq tərlə örtülmüşdür. Həmin əlamətlərə əsasən xəstədə dalağın partlaması ilə əlaqədar daxili qanaxmaya şübhə yaranmış və USM nəticəsində həmin şübhə təsdiq edilmişdir. Buna görə də xəstə R.Əliyevin üzərində təxirəsalınmaz əməliyyat icra edilmişdir.*

1 saylı Şəhər Klinik Xəstəxanasında Şüa və diaqnostika şöbəsinin müdiri **Həkim Tamara Hacıyeva**, **ifadəsində** göstərib ki, 08 avqust 2015-ci il tarixdə saat 17:40-da xəstəxananın növbətçi həkimi Babək Zeynalov Rasim Əliyev adlı xəstəni yanına gətirib şifahi formada onun döş qəfəsini rentgen müayinə etməyini bildirmişdir. Həmin vaxt xəstə Rasim Əliyev özü yeriyib rentgen otağına gəlmiş və aparatın qarşısına keçmişdir. Bundan sonra mikrofon vasitəsilə Rasimlə danışıb hansı nahiyəsinin ağrıdığını soruşmuş, sonuncu əli ilə sol döş qəfəsinin aşağı orta nahiyəsini göstərib həmin yerin ağrıdığını bildirmişdir. Rasim bundan əlavə bədən səthində ağrıyan yer göstərməmişdir. Rasim ağrının

təsirindən dik dayana bilməmiş və sağ tərəfə əyilmiş vəziyyətdə dayanmışdır. Rentgen müayinəsinin dəqiq nəticələnməsi üçün Rasimə bir neçə dəfə düz dayanmasını bildirsə də, sonuncu ağrıdan düz

dayana bilmədiyini demişdir. Buna görə də məcbur olub Rasimi həmin vəziyyətdə müayinə etmişdir. Rentgen müayinəsi zamanı Rasim Əliyevin solda 8 və 9-cu qabırğalarında yerdəyişmiş sınıq və sinusda maye yığılmasını müəyyən etmişdir. Həmin vaxt Rasim Əliyevin ağrıları və duruş vəziyyəti onu tam dəqiqliyi ilə müayinə etməyə imkan vermədiyindən və Rasimin qabırğalarında əlavə sınıqların da olmasından şübhələndiyindən xəstəyə komputer tomoqrafiya müayinəsi məsləhət görərək bu barədə xəstəlik tarixində qeyd etməklə Rasimin müalicəsi ilə məşğul olan həkimləri məlumatlandırmışdır.

Rentgen müayinəsini edən həkim bildirir ki, ilk müayinə zamanı sinusda maye yığımı aşkar edib və bu barədə Rasimin müalicəsi ilə məşğul olan həkimə məlumat verib, hətta komputer tomoqrafiyanın edilməsini istəmişdir. Lakin 17:40 radələrindən 00:30-a kimi həkimlər komputer tomoqrafiya etməmiş, yenidən rentgen müayinə aparılmamış və sinusda yığılan mayenin təmizlənməsi üçün cərrahi tibbi müdaxilə olmamışdır. Rentgen sənədlərinə sinusda maye yığımı aşkarlandığı qeyd edildiyi üçün müstəntiqlər bu sənədi cinayət işi materiallarına əlavə etməyiblər və məhkəmə zamanı bu sənəd zərərçəkmiş və təqsirləndirilən şəxslərin vəkili tərəfindən tələb edilsə də, məhkəmə bu sənədi almaqda maraqlı olmamışdır.

**Rasim Əliyevin ölümünün səbəbinin müəyyən edilməsi cinayət işinin istintaqına həkimlərin günahı olmadığı barədə məktub göndərərək müdaxilə edən Səhiyyə Nazirliyinə tabe olan ekspertlərə tapşırılmışdır** ki, bu ekspertlərin də verdiyi rəy şübhə doğurur. Çünki müstəqil ekspert tərəfindən ekspertiza aparılmayıb.

RATİ-nin müşahidə apardığı məhkəmə zamanı ekspertlər dindirilib.

**16 fevral 2016-ci il tarixində Bakı Ağır Cinayətlər Məhkəməsində** 20 avqust 2015-ci il tarixində ilkin ekspertiza rəyini vermiş Məhkəmə Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin Səbail rayon şöbəsinin eksperti Alim Hüseynov dindirilib. Alim Hüseynov bildirib ki, o, meyidi müayinə edərək rəy verib. Ekspert bildirib ki, Rasim Əliyevin üzərində gözlə görünən xəsarət izləri yox idi. "Rəy hazırlayarkən mənə Rasim Əliyevin ilkin müayinə sənədləri təqdim edilməyib. Mən yalnız müayinə nəticəsində rəy vermişəm. Müayinə nəticəsində müəyyən etdim ki, mərhum Əliyev Rasim Məmmədəli oğlunun ölümünə səbəb aldığı zərbələrin yaratdığı travma kompleksi nəticəsində törənmiş kəskin daxili qanitirmə fonunda inkişaf edən ağ ciyər-ürək çatışmamazlığı olmuşdur", deyə Alim Hüseynov qeyd edib.

Eyni məhkəmə prosesində **13 oktyabr 2015-ci il tarixli məhkəmə komisiyon tibbi ekspertiza rəyini** hazırlayan ekspert Ziyafəddin Məmmədov dindirilib və o bildirib ki, Rasim Əliyevin meyidini görməyib və ekspertiza rəyini istintaq orqanının verdiyi tibbi sənədlər əsasında verib. "Sənədlərdən görünür ki, Rasim Əliyev xəstəxanada müayinə edilərkən hər hansı problemi olmadığı üçün dərhal əməliyyat edilməyib. Müvafiq müayinə və müalicələr, cərrahiyyə əməliyyatı səhiyyə sistemində mövcud olan təlimata uyğun aparılıb. Mənə təqdim edilmiş sənədlərə əsasən rəy vermişəm ki, ölümünə səbəb dalağın partlaması, mədəaltı vəzin quyruğunun travması nəticəsində baş verən daxili qanaxma fonunda ağ ciyərlərin əzilməsi hesabına inkişaf edən kəskin ağ ciyər və ürək-damar çatışmazlığı olmuşdur " deyə Ziyafəddin Məmmədov  qeyd edib.

Ekspertlərdən də ifadələrindən aydın olur ki, **ekspertiza tam şəkildə aparılmayıb**. Bir ekspertə meyid təqdim edilib, ilkin müayinə və müalicə sənədləri təqdim edilməyib, digər ekspert isə yalnız ona verilmiş sənədlərə əsasən rəy verib.

Azərbaycanın şah qanunu olan Konstitusiyanın 41-ci maddəsində[23] göstərilir ki, *Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.* Eyni zamanda bu maddədə göstərilir ki, *İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.* Rasim Əliyev verdiyi son müsahibəsində qeyd edir ki, onun qulağında ağrılar olduğu halda həkim müayinə etməyib, bildirib ki, qulaq həkimi xəstəxanada deyil. Eyni zamanda, Rasim Əliyevin anası Teyfurə Əliyeva da bildirib ki, həkim Rasim Əliyevin həyatına  hər hansı təhlükə olduğunu bildirməyib, ailəsi ehtiyac olarsa daha yaxşı imkanlara malik olan xəstəxanaya da aparmağa

[23] http://www.azerbaijan.az/portal/General/Constitution/doc/constitution_a.pdf

hazır olduğunu bildirdiyi halda, həkimlər Rasim Əliyevin vəziyyətinin yaxşı olduğunu bildiriblər. Halbuki ilkin rentgen müayinəsi zamanı sinusda maye yığımı aşkarlanıb. Bu fakt ailədən gizlədilib.

Hüquq müdafiə təşkilatları və müstəqil medianın Rasim Əliyevə Səhiyyə Nazirliyinə məxsus olan 1 saylı Şəhər Klinik Xəstəxanasında lazımi tibbi yardım göstərilmədiyi barədə həyəcan təbili vurulduğu halda prezident 12 avqust 2015-ci il tarixində Səhiyyə Naziri Oqtay Şirəliyevi "şöhrət " ordeni ilə təltif edir. Bu fakt özü də jurnalistin ölümündə həkimlərin günahkar olduğu şübhəsini gücləndirmiş olur.

Başqa bir qeyd edilməli məqam ondan ibarətdir ki, prezident Rasim Əliyevin ölümünü nəzarətə götürür və bu barədə prezidentin köməkçisi 10 avqust 2015-ci il tarixində açıqlama verir. Amma elə bu məqamda xatırlatmaq yerinə düşər ki, hazırkı hakimiyyəti sərt tənqid edən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynov 2005-ci ildə evinin önündə qətlə yetirilən zaman Prezident İlham Əliyev söz vermişdi ki, 40 gün ərzində bu qətlin üstü açılacaq. Ancaq üzərindən 11 il keçməsinə baxmayaraq jurnalistin qatilləri cəzalandırılmayıb. Elmar Hüseynov ağzından silahla vurulmuşdu və onun köməksiz qalması üçün yaşadığı evdə telefonlar söndürülmüşdü.

Ölkə prezidenti İlham Əliyev 24 avqust 2014-cü il tarixində çıxış edərkən bildirir ki, Azərbaycanda bütün azadlıqlar o cümlədən ifadə azadlığı təmin edilir. Ancaq rəhbərlik etdiyi 13 il ərzində azad fikrini ifadə etdiyi üçün ən azı 5 jurnalist (Elmar Hüseynov, Alim Kazımlı, Novruzəli Məmmədov, Rafiq Tağı və Rasim Əliyev) öldürülüb, yüzlərlə jurnalist döyülüb, hədəyə məruz qalıb. Jurnalistlərə qarşı cinayət işlədən şəxslər həbs olunmadığı üçün cəzasızlıq mühiti yaranıb və nəticədə hədəfə alınan jurnalistlərin sayı artır.

**İnsan Hüquqları haqqında Ümumdünya bəyannaməsi**[24]

Maddə 18 - Hər bir insan düşüncə, vicdan və din azadlığı hüququna malikdir: bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə, dini təlimdə, ibadətdə və dini mərasim qaydalarının yerinə yetirilməsində açıq və özəl qaydada etiqad etmək azadlığı daxildir.

**İnsan Hüquq və Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası** [25]

Maddə 10. İfadə etmək (ekspression) azadlığı 1. Hər kəs (öz fikrini - tərc.) ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir.

**Digər müşahidələr / siyasi motivin göstəriciləri**

Rasim Əliyevin qətlinin siyasi motivli olduğuna işarə verən bir sıra faktorlar vardır.

Cinayət işi materiallarına əlavə edilmiş Elşən İsmayılovla Cavid Hüseynovun whatsapp yazışmasında diqqət çəkən bu hissədir. Elşən İsmayılov yazır *"Gaga bagisla allahqi bilmirdim soypet senin ustunde qurulacag , sadece vasteci sen oldun o telefonu acan kimi mene soyuw soyuwdu varyox , ana soyuwu soydu ,* ***men bilmirdim bu qurma iwdi*** *. ondan sonra men onla gorusdum. Ne ola ola ozunu ele de pis eleme miletin icinde yani oz xeyirine necedise ele de ele . Onsuzda menim adimim cixib . Sen taninmiwsan sene 100 , 100 soz deye biler yaxsi menada . Amma o mene soyende yanimda usaqlar var idi .. Bilmirem"*

Elşən İsmayılov Cavid Hüseynovla danışığında bildirir ki, bu işin "qurama iş" olduğunu bilmirdi, bu isə onu deməyə əsas verir ki, bu işdəki əsas cinayətkarların özlərinin də planın tam miqyasından xəbərləri olmayıb. Yəni, bunlar bu siyasi işin pionları qismində olublar. Cavid Hüseynov Səbail Rayon Məhkəməsində etdiyi son çıxış zamanı bildirib ki, istintaq zamanı ona bildiriblər ki, ***"ölkəmizə təzyiq edilir, buna görə də 2-3 ay yatıb çıxarsan."*** Bunu da onu göstərir ki, istintaq orqanı əvvəlcədən bu şəxslərin cəzaları boynuna alması üçün təzyiq edib, məqsəd isə qətlin siyasi tərəfli olmadığını sübut etmək olub.

---

[24]http://www.ohchr.org/EN/UDHR/Documents/UDHR_Translations/eng.pdf
[25]http://www.echr.coe.int/Documents/Convention_ENG.pdf

Elşən İsmayılov və Cavid Hüseynov Rasim Əliyevin Facebook sosial şəbəkəsində dostu deyil və ortaq dostları da yoxdur. Elşən İsmayılova Rasim Əliyevin yazdığı status barədə başqa bir adam xəbər verib və o adamın kimliyi müəyyən olmasa da, bu işdə maraqlı olduğu aydın görünür. Çünki o adam Elşən İsmayılovu tanıyıb və onun statusa verəcəyi reaksiyasını təxmin edə bilərdi.

RATİ tərəfindən aparılan məhkəmə monitorinqi onu deməyə əsas verir ki, məhkəmə formal xarakterli olub və verilən cəzaların yüksək olması da qətlin siyasi motivli olmasından diqqəti yayındırmaq məqsədi daşımışdır. Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən məhkəmələrdə Rasim Əliyevin vəkillərinin vəsatətlərin təmin edilməməsi, işə formal yanaşılması bunu sübut edir.

# NƏTİCƏ

Azərbaycan hakimiyyəti tənqidi və müstəqil səsləri boğmaq üçün mürəkkəb repressiya sistemi hazırlayıb. Fərqli düşüncənin əzilməsi, jurnalistlərə hücumlar, vətəndaş cəmiyyəti təşkilatlarına təzyiqlər, dinc etirazların zor tətbiq etməklə yatırılması və fundamental azadlıqların digər ciddi pozulması halları Azərbaycanda sistematik hal alıb və bu cür əməllərin cəzasız qalması nəticəsində daimiləşir. Nəticədə, fərqli baxışlar, müstəqil media və müstəqil təşkilatlar üçün məkan getdikcə daralır.

Ölkədə ifadə azadlığı durumuna gəldikdə, RATİ daha öncəki hesabatlarda qeyd olunmuş nəticələri bir daha təkrar edərək ictimai həyatda fəal iştirakı və cəmiyyətin müxtəlif sektorları arasında açıq fikir mübadiləsini stimullaşdıran tolerantlıq mühitinin yoxluğunu narahatlıqla qeyd edir.

Azərbaycanda ifadə azadlığının durumu 2005-ci ildə Elmar Hüseynovun qətlindən sonra sürətlə pisləşməyə başladı və son üç ildə kritik həddə çatdı. Media təşkilatları, müstəqil jurnalistlər uzun müddətdir ki həyəcan təbili çalsalar da, hökumət reaksiya verməyib.

Beynəlxalq təşkilatlar da Prezident İlham Əliyevi ölkədə ifadə azadlığını və jurnalistlərin təhlükəsizliyini təmin etməyə çağırıb. Ancaq Əliyev hökuməti jurnalistlərin həbsini davam etdirib, media qanunvericiliyinə mürtəce dəyişikliklər edib, jurnalistlərə qarşı hücumların üstünün açılması üçün addım atmayıb. Azərbaycan beynəlxalq təşkilatlara, ATƏT və Avropa Şurası kimi qurumlara üzv olanda üzərinə insan hüquqları ilə bağlı öhdəliklər götürsə də, bu öhdəliklər kağız üzərində qalıb.

Əliyev hökuməti elə bir mühit yaradıb ki, tənqidi fikir səsləndirən şəxs və yaxud qohumları ya həbs olunur, ya da digər təhdidlərə məruz qalır. Belə bir kontekstdə, jurnalistlərin fəaliyyətinə ictimaiyyətin də artıq hörməti qalmayıb. Cəzasızlığın hökm sürdüyü şəraitdə jurnalistlərin təhlükəsizliyi təmin oluna bilməz və siyasi motivli həbslər "fırlanan qapı" prinsipi ilə davam edir.

Ölkədə neft qiymətlərinin düşməsi ilə artan iqtisadi problemlər də hökuməti insan hüquqları sahəsində islahat aparmağa, alternativ fikrə hörmət etməyə məcbur edə bilmir. Əliyev rejimi ifadə azadlığına müdaxilə etməkdən çəkinmir, məsələn, bu yaxınlarda siyasiliyi şübhə doğurmayan bir addım ataraq ölkədə illərdir fəaliyyət göstərən ANS telekanalını bağlayıb.

Jurnalistlərin təhlükəsizliyi təmin olunmur. Rasim Əliyev polisə təhlükəsizliyini təmin etməsi üçün müraciət etdiyi halda polis bunu etməyib və nəticədə o, iki həftə sonra döyülüb və xəstəxanada müəmmalı şəkildə dünyasını dəyişib. Həkimlər düzgün tibbi xidməti göstərməyiblər. Ölkə prezidenti isə rəhbərlik etdiyi xəstəxanada iki jurnalistin öldüyü səhiyyə nazirinə şöhrət ordeni verməklə ölkədə baş verən bütün hüquq pozuntularına dəstəyini nümayiş etdirmiş oldu.

Tənqidi səsləri susdurmaq üçün hakim maraqlara "müdaxilə" edən jurnalistlərin bir qayda olaraq fiziki və mənəvi hücumlara, beş halda isə qətlə, məruz qaldığı cəzasızlıq mühitinə görə məsuliyyət Azərbaycan hakimiyyətinin üzərinə düşür.

Bununla əlaqədar olaraq, RATİ Azərbaycan hakimiyyətini jurnalistlərə qarşı zorakılıq və təzyiqin digər formalarına və jurnalistlərə hücum edən və onları öldürən şəxslərin cəzasızlığına son qoymağa, jurnalistlərə qarşı bütün zorakılıq halların üstünün açılmasını və bütün günahkarların qanuna uyğun olaraq cəzalandırılmasını təmin etməyə çağırır.

RATİ Azərbaycan hakimiyyətini jurnalist Rasim Əliyevin qətlini tam şəkildə araşdırmağa, qətldə iştirakı olan hər kəsi cəzalandırmağa və ölkədə jurnalistlərə qarşı zorakılığa görə cəzasızlıq mühitini aradan qaldırmağa çağırır.

RATİ həmçinin beynəlxalq təşkilatları Azərbaycan hökumətindən media azadlığı ilə bağlı öhdəliklərini yerinə yetirməyi və jurnalistlərə qarşı cinayətləri tam və ədalətli şəkildə araşdırmağı tələb etməyə çağırır.